

*Gün gələcək*
*Azərbaycan dünyaya günəş kimi doğacaq.*

AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

10 SENTYABR 2019-cu il ÇƏRŞƏNBƏ AXŞAMI № 197 (6524) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ


## Gürcüstanın Baş Naziri Zati-aliləri cənab Giorgi Qaxariyaya

Hörmətli cənab Baş Nazir,

Gürcüstanın Baş Naziri vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm.

Azərbaycan ilə Gürcüstanı tarixən təşəkkül tapmış dostluq və mehriban qonşuluq əlaqələri birləşdirir. İnanıram ki, bu xoş ənənələrə əsaslanan dövlətlərarası münasibətlərimiz və strateji tərəfdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və möhkəmlənəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost Gürcüstan xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 9 sentyabr 2019-cu il.**

## Gürcüstan işğal olunmuş Dağlıq Qarabağda keçirilmiş qondarma "seçkiləri" və onun nəticələrini tanımır

**Gürcüstan Xarici İşlər Nazirliyi işğal olunmuş Dağlıq Qarabağ bölgəsində qondarma "yerli özünüidarəetmə orqanlarına" keçirilən "seçkilər" ilə bağlı bəyanat yayıb.**

AZƏRTAC xəbər verir ki, bununla bağlı Gürcüstan Xarici İşlər Nazirliyinin saytında rəsmi məlumat yerləşdirilib.

Bəyanatda deyilir ki, Gürcüstan Azərbaycan Respublikasının suverenliyini və beynəlxalq səviyyədə tanınmış sərhədlər çərçivəsində ərazi bütövlüyünü tanıyır. Eyni zamanda, Gürcüstan işğal olunmuş Dağlıq Qarabağda 2019-cu il sentyabrın 8-də keçirilən "yerli özünü idarəetmə orqanlarına seçkiləri" və onun nəticələrini tanımır.

Gürcüstan XİN münaqişənin sülh yolu ilə beynəlxalq hüququn norma və prinsipləri əsasında, beynəlxalq ictimaiyyətin iştirakı ilə həllinə tərəfdardır.

**AZƏRTAC**

## 2019/2020-ci tədris ilində Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş tələbələrə Prezident təqaüdünün verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında" 2001-ci il 3 sentyabr tarixli 564 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

**1.** 2019/2020-ci tədris ilində tələbə qəbulu imtahanlarında ixtisas qrupları üzrə ən yüksək nəticələr göstərmiş və Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş aşağıdakı tələbələrə Prezident təqaüdü verilsin:

Abbaszadə Yeganə Sərvər qızı
Abiyeva Nəzrin Vüqar qızı
Ağamalıyev Əli Niyaməddin oğlu
Ağamalıyev Məhəmməd Niyaməddin oğlu
Ağaşov Turqut Rövşən oğlu
Ağayev Mirkazım Nemət oğlu
Ağazadə Ləman Elnur qızı
Axundzadə Abdulla Elxan oğlu
Axundzadə Rəvan Qədir oğlu
Alıyev Toğrul Ayaz oğlu
Alpaşayev Rəşad Kazım oğlu
Aslanova Nərgiz İbrahim qızı
Azadlı Rəşad Namiq oğlu
Babayev Elnur Nazim oğlu
Babayev Möhsün Kamal oğlu
Babazadə Sadə Vüqar qızı
Bayramlı Turan Sübhan oğlu
Bədəlzadə Rəhim Pərviz oğlu
Bəşirli Fərman Xamiz oğlu
Cavadova Gülşən Habil qızı
Cəfərli Əli Gündüz oğlu
Cəfərli Məleykə Malik qızı
Cəfərli Sevər Elman qızı
Cəfərov Natiq Zəfər oğlu
Eyyub İsmayıl Elçin oğlu
Əhmədli Fərid Əhməd oğlu
Əhmədov Amil Musa oğlu
Əhmədov Nadir Nizami oğlu
Əhmədzadə Jalə Elxan qızı
Əliyev Emin Amil oğlu
Əliyeva Əsmər Bəhruz qızı
Əliyeva Firuzə Fuad qızı
Əlizadə Əmirxan Yasən oğlu
Əlizadə Vüsal Orucəli oğlu
Əsədli Gülçin Ceyhun qızı
Fərəcli Kamaləddin Kamil oğlu
Hacılı Sadiq Əlican oğlu
Hacıyeva Fidan İlfan qızı
Hacızadə Əsmər Natiq qızı
Həbibullayev Rüstəm Laçın oğlu
Həsənli Kamran Rafiq oğlu
Həsənov Eşqin Eyvaz oğlu
Həsənov Sərxan Asif oğlu
Hüseynova Aygün Elyar qızı
Hüseynova Dilarə Səbuhi qızı
Hüseynova Lalə Raqib qızı
Hüseynova Nərmin Fəxrəddin qızı
Hüseynova Seyid Bəyim Əli qızı
Hüseynova Yağmur Azər qızı
Hüseynzadə İnqilab Ağababa oğlu
İbayeva Nəsrin Ağaməd qızı
İsgəndərov İsgəndər Ehtiram oğlu
İsgəndərzadə Aqşin Eldar oğlu
İsmayılov Nicat Vilayət oğlu
İsmayılzadə Nicat Rafiq oğlu
Kazımlı Qəhrəman Rüfət oğlu
Kərimli Yaşar Fərhad oğlu
Qaraxova Günay Məcid qızı
Qaziyeva Cəmilə Ramin qızı
Qədəşova Samilə Xalidşah qızı
Qoçiyev Kənan Vahid oğlu
Quluzadə Fidan Ülfət qızı
Quluzadə Qarakişi İlqar oğlu
Qurbanov Əhməd İlham oğlu
Qurbanov Nicat Hicran oğlu
Qurbanova Elza Nasim qızı
Mahmudlu Kənan Nəbi oğlu
Mehdiyev Murad Mətləb oğlu
Məmmədli Alparslan Dilsuz oğlu
Məmmədov Ayhan Arzu oğlu
Məmmədov Kamran Məclum oğlu
Məmmədov Məzahir Famil oğlu
Məmmədov Pərviz Qədim oğlu
Məmmədova Leyla Vüqar qızı
Məmmədova Mədinə Vilayət qızı
Məmmədova Nəzrin Rövşən qızı
Məmmədova Sevinc İsmayıl qızı
Məmmədtağılı Murad Muxtar oğlu
Muradov Təhmin Hidayət oğlu
Musayev Azər Musa oğlu
Musayeva Arzu Qalib qızı
Nadirov Nail Natiq oğlu
Nəbiyev Samir Rafiq oğlu
Nəcəfli Nigar Firudin qızı
Rəhimli Cavid İlqar oğlu
Rufulla Vüqar Ceyhun oğlu
Rzalı Üsyan Əfqan oğlu
Sadıxova Samirə Araz qızı
Sadıqova Nərmin Əzizxan qızı
Sanılı Yetər Yavər qızı
Səfərəliyeva Jalə Müşfiq qızı
Səfərov Fazil Tərlan oğlu
Səfərov Qorxmaz Seyfəddin oğlu
Səfərzadə Qızbəs Tanrıverdi qızı
Səmədov Şəhriyar Şahin oğlu
Şixəmirli Əsmər Atəş qızı
Şikarov İsmayıl Ramiz oğlu
Tağıyev Taleh Çingiz oğlu
Verdiyeva Nərmin Anar qızı
Vəliyeva Aytən İslam qızı
Yusifli Murad Elşən oğlu
Zeynallı Almaz Ceyhun qızı.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 9 sentyabr 2019-cu il.**

## Azərbaycan ilə Xorvatiya arasında siyasi əlaqələr yaxşı səviyyədədir

**Sentyabrın 9-da Milli Məclis Sədrinin birinci müavini Ziyafət Əsgərov ölkəmizdə səfərdə olan Xorvatiya Respublikası parlamentinin Xorvatiya-Azərbaycan parlamentlərarası dostluq qrupunun üzvləri ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, Ziyafət Əsgərov ölkələrimiz və parlamentlərimiz arasında münasibətlərin inkişaf etdirilməsi və dərinləşdirilməsi baxımından bu səfərin mühüm əhəmiyyət daşıdığını qeyd edib. Bildirib ki, Azərbaycanla Xorvatiya arasında siyasi əlaqələr yaxşı səviyyədədir, əməkdaşlığa dair 25-ə yaxın sənəd imzalanıb, xüsusilə 2013-cü ildə imzalanmış strateji tərəfdaşlığa dair sənəd bir çox sahələri əhatə edir.

Birinci vitse-spiker deyib ki, inkişaf etməkdə olan ticari-iqtisadi əlaqələrimizin gücləndirilməsi üçün kifayət qədər potensial var. Gələn il Azərbaycanla Xorvatiya arasında diplomatik münasibətlərin qurulmasının 25 ili tamam olacaq.

Görüşdə Xorvatiya-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Lyubitsa Maksimçuk təmsil etdiyi parlamentin adından deyib: "Biz bütün sahələrdə Azərbaycanla əlaqələri genişləndirmək arzusundayıq. Parlamentlərarası əməkdaşlığın möhkəmlənməsi üçün qarşılıqlı səfərlərin intensivləşməsini vacib sayırıq". Xanım Maksimçuk ikitərəfli münasibətlərin möhkəmlənməsində hər iki ölkənin dövlət başçılarının rolunu xüsusi qeyd edib.

Sonra nümayəndə heyətinin üzvləri fikirlərini bölüşüblər. Qonaqlar Bakının inkişaf tempinə, burada gördükləri tikinti-quruculuq işlərinə heyranlıqlarını bildiriblər.

**AZƏRTAC**

*Leyla Abdullayeva:*

## Ermənistan tərəfi həqiqətə uyğun olmayan məlumatları məqsədyönlü şəkildə yayır

**Ermənistanın baş naziri Nikol Paşinyan avqustun 6-da Azərbaycanın işğal olunmuş Xankəndi şəhərində keçirilmiş "7-ci erməni oyunları"nın açılış mərasimində çıxışı zamanı sözügedən oyunlarda ilk dəfə olaraq bəzi ölkələrin, o cümlədən Birləşmiş Ərəb Əmirliklərinin də iştirak etməsini qeyd etmişdi.**

Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Leyla Abdullayeva bu xüsusda, həmin ölkələrin Azərbaycanın işğal olunmuş ərazilərində keçirilən bu tədbirə qatılması ilə bağlı hansı tədbirlər görməsi ilə bağlı KİV-in sualını cavablandırıb.

XİN rəsmisi deyib: "İlk dəfə deyil ki, Ermənistan rəsmilərinin həqiqəti əks etdirməyən bəyanatları ilə üzləşirik. Qeyd etdiyiniz məsələ ilə bağlı Azərbaycanın Birləşmiş Ərəb Əmirliklərindəki səfirliyi bu ölkənin Xarici İşlər Nazirliyinə nota ünvanlayıb. Cavab notasında nazirlik bildirib ki, Dağlıq Qarabağ ərazisində keçirilən tədbirdə Birləşmiş Ərəb Əmirliklərinin heç bir vətəndaşı iştirak etməyib. Göründüyü kimi, Ermənistan tərəfi həqiqətə uyğun olmayan məlumatları məqsədyönlü şəkildə yayaraq, qanunsuz separatçı rejimin guya "tanınması" görüntüsünü yaratmaq istəyir. Öz növbəsində, bütün bu kimi cəhdlər sonda yayılan yalan məlumatların ifşası ilə nəticələnir".

**AZƏRTAC**

## İCAPP-ın Gənclər və Qadınlar qollarının Bakıda keçirilən iclaslarında yekun bəyannamələr qəbul edilib

**Asiya Siyasi Partiyalarının Beynəlxalq Konfransının (İCAPP) Gənclər və Qadınlar qollarının Bakıda keçirilən iclaslarında yekun bəyannamələr qəbul edilib.**

Yeni Azərbaycan Partiyasından AZƏRTAC-a verilən məlumata görə, Bakı Bəyannaməsi adlanan bu sənədlər Asiya regionunda və beynəlxalq səviyyədə gənclərin və qadınların ictimai-siyasi həyatda rolunun gücləndirilməsinə, onları narahat edən problemlərin həllinə diqqəti cəlb edir.

Bəyannamədə qeyd olunur ki, hazırda dünyada yaşayan 1,5 milyard gəncin 90 faizi inkişafda olan ölkələrin sakinləridir. Asiya regionunun müxtəlif bölgələrində yaşayan gənclərin önəmli bir hissəsi informasiya texnologiyaları, iş, təhsil, səhiyyə və təlimlərdən faydalanmaqda, inkişaf strategiyaları ilə bağlı dövlət siyasətinin formalaşdırılmasında iştirak imkanlarından istifadə etməkdə maneələrlə üzləşir. Bildirilir ki, inkişaf etməkdə olan ölkələrdə yaşayan gənclərin 20 faizi keyfiyyətli təhsil, təlim və iş şəraitindən məhrumdur. Yetkin insanlar arasındakı işsizlik səviyyəsindən iki dəfə yüksək olan gənclər arasındakı işsizliyi hətta indiki yüksək səviyyədə saxlamaq üçün belə hər ay 5 milyon yeni iş yeri açılmalıdır. O da qeyd edilir ki, əhalinin 65 faizinin yaşı 35-dən aşağı olduğu halda, siyasətdə təmsil olunanların cəmi 6 faizi 35 yaş həddinə daxildir, bu isə gənclərin siyasi fəallığının artırılmasına ehtiyac olduğunu göstərir.

Bakı Bəyannaməsində, həmçinin səmərəli gənclər siyasətinin formalaşdırılmasında mühüm amil olan etibarlı məlumatların toplanması üçün siyasi partiyalar arasında beynəlxalq əməkdaşlığın əhəmiyyəti vurğulanır. Bəyannamədə qadın və qızların da müxtəlif cəmiyyətlərdə üzləşdikləri problemlərə, gender məsələlərinə, qadınlar arasında işsizlik, təhsil problemlərinə diqqət cəlb olunur. Həmçinin gənclərə və qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarına qarşı mübarizəyə çağırış edilir.

Qeyd olunur ki, qadınlar və gənclər arasında işsizlik, aclıq, yoxsulluğun azaldılması üçün dövlət qurumlarının və siyasi partiyaların üzərinə müəyyən vəzifələr düşür. Bildirilir ki, qadınların və gənclərin sosial, iqtisadi problemlərinin həlli, onların qərarvermə prosesinə və idarəçiliyə cəlb olunması BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə dair 2030-cu il Gündəliyinin tələblərinə də uyğundur.

Bakı Bəyannaməsində əksini tapan ən önəmli müddəalardan biri isə gənclərin və qadınların xarici işğal, silahlı münaqişələr və terrorçuluqdan müdafiəsi üçün müvafiq addımların atılmasına edilən çağırışdır. Bundan başqa, Asiya qitəsində hazırda davam edən münaqişələr, habelə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn normaları və beynəlxalq təşkilatların qəbul etdiyi qətnamələrə uyğun həllinə çağırış edilir.

Bəyannamədə, həmçinin Gənclər Qolunun 5-ci iclasının və Qadınlar Qolunun 6-cı iclasının uğurlu təşkilinə görə Yeni Azərbaycan Partiyasına, qonaqpərvərliyə görə Azərbaycan xalqına və bu tarixi toplantılara verdiyi dəstəyə görə Təşkilat Komitəsinin sədri, Azərbaycan Respublikası Baş Nazirinin müavini, YAP sədrinin müavini - icra katibi Əli Əhmədova minnətdarlıq ifadə olunur.

**AZƏRTAC**

*"Foreign Policy News":*

## Ermənistanın "Amulsar" mədəni Cənubi Qafqazın ekologiyası üçün fəlakət mənbəyidir

**ABŞ-ın "Foreign Policy News" portalında Ermənistanda "Amulsar" qızıl mədənində işlərin davam etməsinin ətraf mühitə ziyan verməsindən və faciəvi ekoloji problemlərə gətirib çıxaracağından bəhs edən məqalə dərc olunub.**

AZƏRTAC xəbər verir ki, "Amulsar" mədəni və rəsmi Yerevanın tutduğu qeyri-konstruktiv mövqe haqqında yazan Mərkəzi və Şərqi Avropa üzrə analitik Maykl Bennett Ermənistanın baş naziri Nikol Paşinyanın qızıl mədənində işlərin davam etdiriləcəyini bəyan etdiyini bildirib. O qeyd edib ki, lakin yerli və beynəlxalq ekspertlər, ekoloqlar və səlahiyyətli dairələr bu layihənin nəinki Ermənistanın, hətta bütün Cənubi Qafqazın ekologiyası üçün fəlakət yaradacağını söyləyirlər.




Qeyd olunur ki, baş nazir Nikol Paşinyan bu yaxınlarda Facebook səhifəsində bildirib ki, layihənin Ermənistana və bölgəyə nə dərəcədə zərərli olmasını təyin etmək üçün yaradılan beynəlxalq ekspertlər qrupunun apardığı tədqiqata görə, Cermux və Sevan gölü yaxınlığında yerləşən "Amulsar" qızıl mədəninin istismarının heç bir ekoloji təhlükəsi yoxdur.

Müəllif yazır ki, Paşinyanın erməni xalqına 2025-ci ilə böyük iqtisadi sıçrayışlar söz verməsi onu bu layihənin reallaşmasında daha maraqlı edir. Belə ki, layihənin operatoru olan Böyük Britaniyanın "Lydian Armenia" şirkəti Ermənistanda sosial layihələrin icrasına 3 milyon dollardan çox vəsait xərcləyib, həmçinin təbiətin mühafizəsi məqsədilə qoruq yaradacağına boyun olub. Hazırda qarşısına ciddi iqtisadi artım planı qoyan Ermənistan hökuməti üçün "Amulsar" qızıl mədəninin istismarı layihəsi göydəndüşmə kimi görünə bilər.

Yerli ekoloqlar isə baş nazirin bu bəyanatına cavab olaraq Ermənistanın paytaxtı Yerevan şəhərində bir neçə etiraz aksiyası keçirib və bu layihənin Cənubi Qafqazda yeni ekoloji təhlükə ocağı olacağını bildiriblər.

Oxucuların diqqətinə çatdırılır ki, "Amulsar" qızıl yatağı Ermənistanın təmiz qızıl ehtiyatına görə ikinci yatağıdır. Yataqda 31 milyon ton qızıl filizi və 40 min ton təmiz qızıl aşkarlanıb. Ekoloqların fikrincə, Arpa və Vorotan çayları arasında, Cermux kurort şəhərinin 13 kilometrliyində yerləşən yatağın istismarı zamanı Cermux yatağı yaxınlığında olan yeraltı sular, daha sonra isə əsas su mənbəyi olan Sevan gölü həyat üçün təhlükəli olan maddələrlə çirklənəcək və bu, həlli mümkün olmayan fəlakətə səbəb ola bilər. Məhz bu səbəbdən ekspert rəyi alınana qədər "Amulsar" qızıl mədənində işlər dayandırılıb və "Earth Link & Advanced Resources Development" (ELARD) şirkətinə kompleks ekspertiza aparmaq üçün vəsait ayrılıb. Lakin ELARD şirkətinin gəldiyi nəticə Ermənistan rəhbərliyinin istəyi ilə üst-üstə düşüb və bu yataqların istismar edilməsini qeyri-təhlükəli kimi qiymətləndirib. ELARD bildirib ki, yataqların istismarı zamanı təhlükələr minimal və aradan qaldırılandır. Buna baxmayaraq, dünyanın aparıcı beyin mərkəzlərinin üç əməkdaşı Ermənistandan olan həmkarları Harun Branozyanla birgə layihənin ətraf mühitə təsiri sənədini incələyərək belə qərara gəliblər ki, "Amulsar" qızıl yatağının istismarı layihəsi ətraf mühit üçün çox zərərlidir.

Maykl Bennett qeyd edir ki, layihə nəinki Cermux ətrafı bölgələrə və Sevan gölünə, həmçinin Azərbaycan ərazisindən keçən çayların çirklənməsinə şərait yaradır. Layihənin başlanması ilə asid, metal, sulfat, nitrat və digər həyat üçün təhlükəli zərərli maddələrin Arpa, Darb və Vorotan çaylarına, Kerçut su anbarına axacaq, bəlkə də daha çox müddətdə axıdılması baş verəcək ki, bu da nəticədə ekosistemin məhvinə şərait yaradacaq. "Lydian" şirkətinin nəzərdə tutduğu tədbirlər yetərli deyil və su hövzələrinin çirklənməməsi riskini qarşılamır", - deyə ekspertlər bildiriblər.

Hesabatda adıçəkilən Arpa çayının Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ərazisində, Vorotan çayının isə Ermənistan tərəfdən işğal edilmiş Azərbaycan torpaqlarında Araz çayı ilə birləşdiyi bildirilir. Bu, o deməkdir ki, qızıl yataqlarının istismarı nəticəsində çirklənmiş su Araz vasitəsilə Azərbaycanın əsas içməli su ehtiyatı olan Kür çayına, oradan isə neft və nərə balıqları ilə zəngin Xəzər dənizinə axıdılacaq. Beləliklə, "Amulsar" yatağının istismarı nəinki Cermux ətrafına və Sevan gölünə, həmçinin kütləvi iqlim dəyişiklikləri ilə mübarizəyə qoşularaq ağacəkmə kampaniyasının aparıldığı Azərbaycan və bütün Xəzər hövzəsi ölkələri üçün də təhlükəli olacaq. Bu, artıq problemi iki qonşu ölkə çərçivəsindən çıxaracaq və Amazon meşələrinin yanması kimi dünya miqyaslı edəcək.

Son olaraq hesabat müəllifləri Ermənistan hökumətini və onun vətəndaşlarını bu layihənin reallaşdırılmasına imkan verməməyə çağırıblar.

Ekoloqlar, həmçinin bildirirlər ki, bu layihəni həyata keçirməklə Ermənistan BMT-nin transsərhəd çayları ilə bağlı konvensiyasına da zidd hərəkət etmiş olacaq.

Məqalənin sonunda qeyd olunur ki, "Amulsar" qızıl mədəninin yarada biləcəyi ekoloji fəsad iqlim dəyişikliyi ilə bağlı böyük dövlətlərin ortaya qoyduğu məqsədlərin əleyhinə fəaliyyət kimi qiymətləndirilə bilər.

**AZƏRTAC**

# Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə Ağcabədi Olimpiya İdman Kompleksində gənclərlə görüş keçirilib

**Sentyabrın 8-də Yeni Azərbaycan Partiyasının (YAP) təşkilatçılığı ilə Ağcabədi Olimpiya İdman Kompleksində gənclərlə görüş keçirilib. Görüşdə Azərbaycan Respublikası Baş Nazirinin müavini, Yeni Azərbaycan Partiyası sədrinin müavini-icra katibi Əli Əhmədov, YAP icra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov, deputatlar Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Tahir Rzayev, Rauf Əliyev və ictimaiyyət nümayəndələri iştirak ediblər.**



AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, əvvəlcə Ağcabədi şəhərinin mərkəzi meydanında ümummilli lider Heydər Əliyevin abidəsi ziyarət olunub, önünə tər gül dəstələri qoyulub.

Olimpiya İdman Kompleksində keçirilən tədbir Dövlət himninin səsləndirilməsi ilə başlayıb. YAP siyasi şurasının üzvü, Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Şahin Məmmədov tədbiri açaraq Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində ölkəmizin gündən-günə inkişaf etdiyini bildirib. Diqqətə çatdırıb ki, Ağcabədi rayonunun 136 min nəfər əhalisinin 37 min 700 nəfərini 14-29 yaşlı gənclər təşkil edir. YAP Ağcabədi rayonunun 15 min 600 nəfər üzvündən 6465 nəfəri gəncdir. Dövlət başçısının regionların inkişafına göstərdiyi diqqət və qayğısı nəticəsində Ağcabədi rayonunda da geniş tikinti-quruculuq işləri aparılır, infrastruktur layihələri həyata keçirilir, rayon iqtisadiyyatı və aqrar sahə inkişaf etdirilir. Ağcabədili gənclər rayonun inkişafında, ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında yaxından iştirak edirlər.







Baş Nazirin müavini, Yeni Azərbaycan Partiyası sədrinin müavini-icra katibi Əli Əhmədov Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda bütün sahələrdə əldə edilən uğurlardan danışıb. Baş Nazirin müavini bildirib ki, ölkəmizdə hər bir vətəndaş özünü təhlükəsiz, əmin-amanlıq içərisində hiss edir. Sabitlik, əmin-amanlıq hər bir ailədə, hər bir valideyndə öz uşaqlarının gələcəyi üçün arxayınçılıq yaradır. Dövlət özünün ən müqəddəs vəzifələrindən olan insanların təhlükəsizliyini qətiyyətlə təmin edir. Vətəndaşların rifahı, xoşbəxt gələcəyi üçün imkan və şərait yaradılır. Məktəblər, uşaq bağçaları, xəstəxanalar inşa olunur. Vaxtilə insanları narahat edən problemlər aradan qaldırılır.

Ə.Əhmədov qeyd edib ki, ölkəmizdə gənclər üçün hər cür həyat şəraiti yaradılıb. Gənclərimiz xoşbəxtdirlər ki, Azərbaycanın bu gözəl dövründə böyüyür, təhsil alır, ölkəmizin tərəqqisində və inkişafında öz xidmətlərini göstərirlər. Gənclər dövlətimizi sevməli, onun yolunda mübariz olmalıdırlar.

Milli Məclisin deputatı Tahir Rzayev çıxış edərək, ölkəmizdə gənclərə göstərilən diqqət və qayğıdan, gənclərin dövlətə, dövlətçiliyimizə, Prezident İlham Əliyevin apardığı uzaqgörən siyasətə həmişə sədaqətli olmalarından danışıb, onlara uğurlar arzulayıb.

Sonra idmançılar öz məharətlərini göstəriblər.

Tədbir konsert proqramı ilə başa çatıb.

**AZƏRTAC**

# Azərbaycan Ordusu qarşıya qoyulan istənilən hərbi vəzifəni yerinə yetirməyə hazırdır





**Yeni Azərbaycan Partiyasının (YAP) təşkilatçılığı ilə Ağcabədi rayonu ərazisindəki N nömrəli hərbi hissədə əsgər və zabitlərlə görüş keçirilib.**



Görüşdə Azərbaycan Respublikası Baş Nazirinin müavini, Yeni Azərbaycan Partiyası sədrinin müavini-icra katibi Əli Əhmədov, Milli Məclisin deputatları Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Tahir Rzayev, Rauf Əliyev, Ağcabədi və Laçın Rayon İcra hakimiyyətlərinin başçıları, ictimaiyyət nümayəndələri iştirak ediblər.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, əsgər və zabitlər qarşısında çıxış edən Baş Nazirin müavini Əli Əhmədov Ali Baş Komandan İlham Əliyevin ordu quruculuğu istiqamətində həyata keçirdiyi uğurlu fəaliyyətdən, silahlı qüvvələrə göstərilən diqqət və qayğıdan söz açıb. Bildirib ki, Prezident İlham Əliyevin apardığı siyasət nəticəsində Azərbaycan Silahlı Qüvvələri dünyanın ən güclü ordularından birinə çevrilib.

"Ordumuzun gücü təkcə onun malik olduğu silahlarda, hərbi sursatlarda deyil. Ordumuzun daha möhtəşəm güc mənbəyi əsgərlərimizin qəhrəmanlığında, yüksək döyüş ruhunda olmasındadır. Azərbaycan xalqı, dövləti daim öz əsgərinin yanındadır. Biz ordumuzla qürur duyur, fəxr edirik. Əminik ki, silahlı qüvvələrimiz Vətənimizin müstəqilliyinin və dövlətçiliyimizin keşiyində əzmlə dayanıb. Azərbaycan Ordusu qarşıya qoyulan istənilən hərbi vəzifəni yerinə yetirməyə hazırdır. Biz dövlətimizin, xalqımızın və ordumuzun iradəsini birləşdirərək, torpaqlarımızı işğaldan azad etmək kimi şanlı vəzifəni yerinə yetirməyə nail olacağıq", - deyə Ə.Əhmədov söyləyib.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan danışıqlar prosesindən də bəhs edən Baş Nazirin müavini deyib: "Azərbaycan münaqişənin qan tökülmədən həllinə çalışır və danışıqlar prosesi aparılır. Doğrudur, danışıqlar prosesi uzanır. Biz dəfələrlə bununla bağlı mövqeyimizi ən yüksək səviyyədə ifadə etmişik. Aparılan siyasət ondan ibarətdir ki, qan tökülmədən, itkilərə yol vermədən Azərbaycanın işğal edilmiş torpaqlarının azad olunmasını təmin edək. Azərbaycan tərəfinin qoyduğu yeganə şərt odur ki, işğal olunmuş bütün torpaqlar qeyd-şərtsiz azad edilməlidir. Çünki bu torpaqlar Azərbaycanın torpaqlarıdır. Bütün dünya bu torpaqların Azərbaycan ərazisi olduğunu qəbul edir. Bütün hüquqlar, beynəlxalq normalar Azərbaycanın haqlı mövqeyini nümayiş etdirir. Ermənistan tərəfinin qeyri-konstruktiv mövqeyi ucbatından hələ ki, danışıqlar prosesi istədiyimiz nəticəyə gətirib çıxarmayıb. Əgər danışıqlar prosesi biz istədiyimiz nəticəni verməsə, pozulmuş ədalət bərpa olunmasa, Azərbaycanın torpaqları geri qayıtmasa, biz məsələni ordumuzun gücü hesabına həll edəcəyik. Bizim hər birimizin bir müqəddəs vəzifəsi var - işğal altında olan torpaqlarımızın azad edilməsi, məcburi köçkünlərin doğma yurdlarına qayıtması, ədalətin bərpa olunması".

Birlik komandiri, general-mayor Mais Bərxudarov qeyd edib ki, silahlı qüvvələrə göstərilən diqqət və qayğı nəticəsində Azərbaycan Ordusu dünyanın ən güclü ordularından birinə çevrilib. Silahlı qüvvələrin təminatı, şəxsi heyətin mənəvi-psixoloji hazırlığı, döyüş ruhunun, vətənpərvərlik hissinin yüksək olması onu deməyə əsas verir ki, ordumuz düşməni hər an məhv etməyə qadirdir, buna hazırdır.

Sonra YAP sədrinin müavini-icra katibi Əli Əhmədov və digər qonaqlar hərbi hissənin ərazisində yerləşən əsgər yataqxanası, məişət otağı, yeməkxana, hamam, əşya anbarı və digər xidməti otaqlara baxış keçirib, şəxsi heyətin həyat və məişət şəraiti ilə yaxından tanış olub, əsgərlərlə birgə nahar ediblər.

Hərbi hissəyə ideoloji və bədii kitablar hədiyyə olunub. Əsgər və zabitlər üçün konsert proqramı təşkil edilib.

**AZƏRTAC**

*Əli HƏSƏNOV:*

# Azərbaycan iqtidarı dövlətə və dövlətçiliyə xidmət etmək istəyən hər bir qrup və ya şəxslə əməkdaşlığa açıqdır



**Milli Məclisin komitə sədri, Yeni Azərbaycan Partiyasının (YAP) rəhbərliyində təmsil olunan Eldar İbrahimovun adından dünən yayılan açıqlama sosial şəbəkələrdə və ictimai rəydə müəyyən anlaşılmazlığa səbəb olub.**

Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi, həm də YAP rəhbərliyində təmsil olunan şəxs kimi bəyan edirəm ki, həm partiyamızın, həm də mövcud iqtidarın bu məsələyə münasibəti ümummilli lider, dövlətimizin və partiyamızın qurucusu Heydər Əliyev tərəfindən müəyyən edilib və bu gün də dəyişməz olaraq qalır.

Bu fikirlər Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovun Facebook sosial şəbəkəsində paylaşdığı statusda yer alıb.

Prezidentin köməkçisi bildirib: "Xatırladıram ki, ümummilli lider Heydər Əliyevin Azərbaycan ziyalılarının 1992-ci ildə mətbuat vasitəsilə ona ünvanladığı müraciətinə verdiyi cavab yeni siyasi hərəkatın və bu hərəkatın avanqard qüvvəsi olan YAP-ın manifesti olaraq qəbul edilib və həmin manifestdə ifadə olunmuş prinsip və meyarlar bu gün də siyasi fəaliyyətimizin əsas kredosunu təşkil etməkdədir. Heydər Əliyevin ziyalılara 1992-ci ildə ünvanlandığı həmin müraciət əslində, sadəcə, yeni bir siyasi partiyanın deyil, quruculuğuna başladığımız müstəqil dövlətin gələcək siyasi-ideoloji proqramı idi.

Müraciətdə Ümummilli Lider Azərbaycanın bütün sağlam qüvvələrini vahid dövlətçilik və azərbaycançılıq ideyaları ətrafında birləşərək gənc, müstəqil və yeni Azərbaycan dövlətinin quruculuğuna öz töhfəsini verməyə səsləyirdi.

Hakimiyyətdə olduğu bütün müddət ərzində Ümummilli Lider həmişə birlik və həmrəylik ideyasına sadiq qalmış, ölkədə vətəndaş sülhü, milli birlik naminə, Azərbaycan dövlətçiliyinə xidmət etmək istəyən, hər hansı idarəçilik və intellektual keyfiyyətləri olan insanların YAP-da və YAP-ın qurduğu iqtidar komandasında təmsil olunmasına şərait yaratmışdır. Azərbaycan tarixində həm də senzuranı ləğv etmiş rəhbər kimi Ümummilli Lider fərqli siyasi qüvvələrin parlamentdə birgə təmsilçiliyini, siyasi plüralizm və söz azadlığını müasir inkişafın labüd bir prinsipi olaraq qəbul etmiş, ümummilli məsələlərin siyasi opponentlərlə birgə müzakirəsini, bütün məsələlərin həlli naminə hər kəslə açıq dialoqu və əməkdaşlığı vacib saymışdır.

Belə dövlətçi-azərbaycançı yanaşma, milli həmrəyliyə sədaqət Ümummilli Liderin siyasi irsinin davamçısı Prezident İlham Əliyevin hakimiyyəti dövründə də ardıcıl olaraq davam etdirilir. İlham Əliyev ilk dəfə Prezident seçildiyi 2003-cü ildə səsləndirdiyi "Mən bütün azərbaycanlıların Prezidentiyəm" açıqlaması ilə həmin prinsiplərin onun üçün də dəyişməz olduğunu ortaya qoymuşdur.

Bir daha qeyd edirəm ki, bu prinsiplər dəyişməzdir, Azərbaycan iqtidarı dövlətə və dövlətçiliyə xidmət etmək istəyən hər bir qrup və ya şəxslə dialoqa və əməkdaşlığa açıqdır, öz siyasi rəqiblərini düşmən hesab etmir və onlarla ümummilli məsələlərlə bağlı müzakirə və əməkdaşlığı məqbul sayır. Eldar İbrahimovun adından yayılmış məlum fikirlər isə YAP-ın və İlham Əliyev iqtidarının mövqeyini əks etdirmir".

**AZƏRTAC**

# Energetika naziri vətəndaşları qəbul edib

**Energetika naziri Pərviz Şahbazov nazirlikdə növbəti dəfə vətəndaş qəbulu keçirib. Nazir Bakı şəhəri və Ağsu, Biləsuvar, Masallı rayonlarından olan vətəndaşları qəbul edib.**



Energetika Nazirliyindən AZƏRTAC-a bildirilib ki, müraciətlər əsasən, elektrik enerjisi təchizatı, elektrik dirəklərinin köhnəlməsi, elektrik xətlərinin yararsız vəziyyətdə olması, işlə təminat və digər məsələləri əhatə edib. P.Şahbazov vətəndaşların müraciətlərini dinləyib, qeyd olunan məsələlərin hərtərəfli öyrənilməsi və qanunvericiliyin tələblərinə uyğun həll edilməsi üçün nazirliyin aidiyyəti struktur bölmələrinə müvafiq tapşırıqlar verib. Nazirliyin fəaliyyətinə aid olmayan müraciətlərin isə qeydiyyata alınaraq müvafiq qurumlara çatdırılması üçün göstərişlər verilib.

Qeyd edək ki, Prezident İlham Əliyevin dövlət qurumları tərəfindən vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması barədə tapşırıqları Energetika Nazirliyi tərəfindən daim diqqətdə saxlanılır və nazirlik üzrə rəhbər vəzifəli şəxslərin 2019-cu il üçün vətəndaş qəbulu qrafikinə əsasən nazirlikdə vətəndaşların qəbulu həyata keçirilir.

Bununla yanaşı, mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2019-cu il üzrə şəhər və rayonlarda vətəndaşların qəbulu qrafikinə uyğun olaraq, Energetika naziri və nazir müavinləri hər ay bölgələrdə vətəndaşları qəbul edir.

**AZƏRTAC**

# Xorvatiya parlamentinin nümayəndə heyəti Şəhidlər xiyabanını ziyarət edib

**Azərbaycanda səfərdə olan Xorvatiya-Azərbaycan parlamentlərarası dostluq qrupunun nümayəndə heyəti sentyabrın 9-da Şəhidlər xiyabanına gedərək Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini yad edib, məzarları üzərinə tər güllər düzüblər.**



AZƏRTAC xəbər verir ki, sonra Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edən nümayəndə heyətinin üzvlərinə Şəhidlər xiyabanının tarixi və paytaxtımızda aparılan abadlıq-quruculuq işləri barədə məlumat verilib.

**AZƏRTAC**

# Bakıda İndoneziyanın müstəqilliyinin 74-cü ildönümü qeyd olunub

**Sentyabrın 9-da İndoneziyanın Azərbaycandakı səfirliyi ölkəsinin müstəqilliyinin 74-cü ildönümü ilə əlaqədar rəsmi qəbul təşkil edib.**





AZƏRTAC xəbər verir ki, tədbirdə əvvəlcə hər iki ölkənin dövlət himnləri səsləndirilib.

Qəbulda çıxış edən səfir Hüsnan Bəy Fənani İndoneziyanın keçdiyi inkişaf yolundan danışıb.

Ölkələrimiz arasındakı əlaqələrdən bəhs edən səfir münasibətlərimizin son illərdə daha da inkişaf etdiyini deyib. Əlavə edib ki, İndoneziya Azərbaycanı özünə dost və tərəfdaş hesab edir. Siyasi və iqtisadi əlaqələr yüksək səviyyədədir. İndoneziya və Azərbaycan arasında yüksək səviyyəli səfərlər təşkil olunur.

Səfir vurğulayıb ki, Azərbaycanın müstəqilliyinin bərpasından ötən 28 ildə ölkələrimiz arasında əməkdaşlıq genişlənib və bu gün də sürətlə inkişaf edir. O, İndoneziya iş adamlarının Azərbaycana mütəmadi səfərlərini xatırladaraq bildirib ki, indoneziyalı investorlar ölkəmizdə iş qurmaqda maraqlıdırlar.

Hüsnan Bəy Fənani ölkələrimiz arasında münasibətlərin inkişafında Azərbaycan Prezidenti İlham Əliyevin əvəzsiz xidmətlərini də diqqətə çatdırıb.

Diplomat qeyd edib ki, İndoneziya Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycanın haqlı mövqeyini dəstəkləyir. O əlavə edib ki, hər iki ölkə terrorçuluğa qarşı əməkdaşlığı daha da inkişaf etdirməlidir.

Kənd Təsərrüfatı naziri İnam Kərimov rəsmi qəbulda çıxış edərək Azərbaycan Hökuməti adından İndoneziya xalqını əlamətdar gün münasibətilə təbrik edib. Bildirib ki, son 28 ildə ölkələrimiz arasındakı münasibətlər yüksələn xətt üzrə inkişaf edir. Hər iki ölkə beynəlxalq təşkilatlarda bir-birini dəstəkləyir.

İndoneziya ilə Azərbaycan arasında mövcud iqtisadi-ticari əlaqələrin daha da inkişaf etdirilməsinin vacibliyini vurğulayan nazir əlavə edib ki, Azərbaycanın reallaşdırdığı BTQ dəmir yolu beynəlxalq platformada önəmli layihədir. İ.Kərimov İndoneziyanın da bu mühüm layihəyə qoşulacağına əmin olduğunu bildirib.

Nazir vurğulayıb ki, İndoneziya səfirliyi son iki ildə ölkəmizdə müxtəlif mədəniyyət festivalları keçirir. Bu isə xalqlarımız arasında əlaqələrin güclənməsinə təkan verir.

İnam Kərimov ölkələrimiz arasında münasibətlərin gələcəkdə daha da inkişaf edəcəyinə əminliyini ifadə edib.

**AZƏRTAC**

# Tariximizin xanlıqlar dövründən bəhs edən kitab Moskvada nəşr olunub

**Görkəmli Azərbaycan alimi, akademik Ramiz Mehdiyevin “Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında” kitabı Moskvada nəşr olunub. Kitab Azərbaycan Dövlət Tərcümə Mərkəzi tərəfindən nəşrə hazırlanıb.**



Tərcümə Mərkəzindən AZƏRTAC-a bildirilib ki, kitabda Azərbaycan tarixinin ən ağrılı və həssas mərhələlərindən olan qədim xanlıqlar dövrünün indiyədək tarixşünaslığa gizli qalan həqiqətləri üzə çıxarılmaqla yanaşı, ciddi elmi mübahisələrə səbəb olan bir sıra qaranlıq məqamlara aydınlıq gətirilir, hadisələr və tarixi şəxsiyyətlər elmi faktlar və arxiv sənədləri əsasında işıqlandırılır.

Əsərin rus dilinə tərcüməçisi Püstə Axundova, mətnlərə dair şərh və qeydlərin müəllifi siyasi elmlər üzrə fəlsəfə doktoru Eldar Əmirov, arxiv sənədlərinin fars dilindən tərcüməçisi AMEA-nın Qafqazşünaslıq İnstitutunun direktor müavini Şahin Yəhyayev, redaktorları Nadiyə Qafarova və Fərrux Rzayevdir.

Kitab tarixçilər və mənbəşünaslar, eləcə də Azərbaycanın qədim tarixi ilə maraqlanan geniş oxucu kütləsi üçün qiymətli elmi mənbədir.

**AZƏRTAC**

# YAP-ın Qarabağ bölgəsi üzrə rayon təşkilatlarının ilk təşkilat sədrlərinin iştirakı ilə müşavirə keçirilib






**Sentyabrın 8-də Ağcabədi rayonunda Yeni Azərbaycan Partiyasının Ağcabədi, Laçın, Bərdə, Ağdam və Tərtər rayon təşkilatlarının ilk təşkilat sədrlərinin iştirakı ilə müşavirə keçirilib.**

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, müşavirədə çıxış edən Azərbaycan Respublikası Baş Nazirinin müavini, Yeni Azərbaycan Partiyası sədrinin müavini-icra katibi Əli Əhmədov Prezident İlham Əliyevin siyasəti nəticəsində Azərbaycanın ötən illər ərzində böyük inkişaf yolu keçdiyini diqqətə çatdırıb. Əli Əhmədov bildirib ki, son illər Azərbaycan iqtisadiyyatı bir neçə dəfə artıb. Təbii ki, iqtisadiyyatın inkişafı dövlətin sosial siyasətinin daha da güclənməsinə zəmin yaradır. Bu mənada əhalinin rifah halının yüksəlməsi istiqamətində atılan addımlar bunun əyani göstəricisidir.

Bu ilin əvvəlindən Prezident İlham Əliyevin müvafiq fərman və sərəncamları ilə ölkəmizdə əmakhaqlarının, təqaüdlərin, sosial müavinətlərin və digər sosial ödənişlərin əhəmiyyətli dərəcədə artırıldığını deyən Baş Nazirin müavini qeyd edib ki, ölkəmizdə qayğıya ehtiyacı olan insanlara dövlətimiz lazımi diqqəti göstərir. Onun sözlərinə görə, hər bir ailə bu artımlardan faydalanır. Əli Əhmədov deyib ki, Azərbaycan dövləti gücləndikcə, əhalinin rifah halının daha da yüksəldilməsi istiqamətində növbəti addımlar atılacaq.

YAP sədrinin müavini bildirib ki, Azərbaycanın bu uğurları qazanmasının əsasında dayanan amillərdən biri də sabitlikdir. Çünki sabitlik olmadan heç bir inkişafdan, əmin-amanlıqdan söhbət gedə bilməz. Ona görə də, hər bir dövlət və xalq üçün sabitlik ən mühüm şərtlərdən biridir.

Azərbaycanın beynəlxalq miqyasda da nüfuzunun davamlı olaraq artdığını deyən Əli Əhmədov ölkəmizin dünyada və regionda baş verən proseslərdə fəal mövqe nümayiş etdirdiyini söyləyib.

Bununla belə, Azərbaycanın inkişafını və güclənməsini istəməyən qüvvələrin olduğunu deyən YAP sədrinin müavini həmin dairələrin müxtəlif vasitələrlə ölkəmizə qarşı qarayaxma kampaniyası apardıqlarını qeyd edib. Bu vasitələrin biri də sosial şəbəkələrdir. YAP sədrinin müavini vurğulayıb ki, belə kampaniya aparanlar cəmiyyətimizdə ifşa olunmalıdır. Ona görə də, partiyamızın üzvləri Azərbaycanın qazandığı nailiyyətləri insanlar arasında geniş təbliğ etmək işini fəal şəkildə davam etdirməlidir. O cümlədən ölkəmizə qarşı qarayaxma kampaniyası aparan dairələrin, radikal müxalifətin əsl niyyətləri ifşa olunmalıdır.

Əli Əhmədov, həmçinin bu il ölkəmizdə bələdiyyə seçkilərinin keçiriləcəyini deyib və partiyamızın bu seçkilərə hazırlığı məsələləri haqqında da fikirlərini bildirib. O,Yeni Azərbaycan Partiyasının böyük resurslarının və seçki təcrübəsinin olduğunu deyərək, bu seçkilərdə də uğur qazanılacağına əminliyini ifadə edib.

Müşavirədə bələdiyyə seçkilərinə hazırlıq məsələləri ilə bağlı partiyanın rayon təşkilatlarına müvafiq tövsiyə və tapşırıqlar verilib.

**AZƏRTAC**

# Maliyyə Nazirliyinin kollegiyası 2020-ci il dövlət büdcəsinin və icmal büdcənin layihələrinin Nazirlər Kabinetinə təqdim olunmasına dair qərar qəbul edib

**Sentyabrın 9-da Maliyyə Nazirliyində Azərbaycan Respublikasının 2020-ci il və ortamüddətli dövrdə icmal və dövlət büdcəsinin makro-fiskal çərçivəsi, 2020-ci ilin icmal və dövlət büdcəsi layihələrinin tərtibi və qarşıda duran digər vəzifələrə həsr olunmuş kollegiya iclası keçirilib.**



Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, iclası giriş sözü ilə açan Maliyyə naziri, kollegiyanın sədri Samir Şərifov Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahat tədbirlərinin cari ilin ötən dövründə makroiqtisadi dayanıqlığın təmin olunması ilə yanaşı, əhalinin rifah səviyyəsinin yüksəldilməsinə, qeyri-neft sektorunun inkişafına, valyuta ehtiyatlarının artımına xidmət etdiyini deyib. Bildirib ki, xüsusilə cari ilin aprel və sentyabr aylarında iki mərhələdə həyata keçirilən geniş sosial dəstək proqramı ilə minimum pensiya, minimum əməkhaqqı, sosial müavinətlər və təqaüdlər, dövlət orqanlarında və bir sıra təşkilatlarda çalışanların əməkhaqlarının əhəmiyyətli artımı, habelə şəhid vərəsələrinə birdəfəlik ödəmənin verilməsi vurğulanmalıdır. Bununla yanaşı, fiziki şəxslərin vaxtı ötmüş problemli kreditlərinin qaytarılmasına, ələlxüsus manatın dəyər itirməsi ilə əlaqədar xarici valyutada kreditləri olan vətəndaşlara dövlət dəstəyinin göstərilməsi ilə bağlı inqilabi qərarlar qəbul olunub.

“Beləliklə də dövlət başçısı növbəti dəfə əhalinin rifahının yüksəlməsi, etibarlı sosial müdafiəsinin və layiqli həyat səviyyəsinin təmin olunması istiqamətində mühüm addımlar atıb. Kifayət qədər geniş maliyyə tələb edən bu sosial dəstək proqramının maliyyə təminatı dövlət büdcəsinin ehtiyatları səfərbər edilərək, həmçinin bəzi xərclər optimallaşdırılaraq təmin olunub”, - deyə nazir qeyd edib.

S.Şərifov büdcə qaydasına əsasən hazırlanan gələn ilin dövlət büdcəsinin tərtibinin xüsusiyyətləri üzərində dayanaraq qeyd edib: “2020-ci ilin icmal və dövlət büdcələrinin layihələri Prezident İlham Əliyevin müəyyən etdiyi iqtisadi və sosial inkişaf prioritetləri, büdcə sistemi haqqında qanunvericiliyinin tələbləri, qlobal iqtisadiyyatda gedən proseslər, onların ölkə iqtisadiyyatına mümkün təsirləri, o cümlədən İqtisadiyyat Nazirliyinin ortamüddətli dövrdə iqtisadi və sosial inkişafa dair proqnozları, habelə dövlət maliyyə sisteminin orta və uzunmüddətli dövrdə qarşısında duran çağırışlar nəzərə alınmaqla hazırlanıb. Məlum olduğu kimi, 2019-cu ilin dövlət və icmal büdcəsinin hazırlanması zamanı əvvəlki dövrlərdən daha fərqli yanaşma tətbiq edildi. Bu zaman yeni qəbul edilmiş büdcə qaydalarının tələblərinə əsasən makro-fiskal çərçivə, o cümlədən ortamüddətli dövrə icmal büdcə xərclərinin yuxarı hədləri müəyyən olundu. Bu yanaşma 2020-ci ilin dövlət və icmal büdcələrinin layihələri hazırlanarkən də davam etdirilib”.

“2020-ci ilin icmal və dövlət büdcəsinin əsas parametrləri Maliyyə Sabitliyi Şurasında da baxılaraq razılaşdırıldıqdan sonra büdcənin tərtibi üçün istifadə olunub. İlk növbədə, 2020-ci il və sonrakı üç ilin icmal və dövlət büdcələrinin büdcə qaydasına əsasən hazırlanması, dövlət büdcəsinin gəlir və xərclərinin hesablanması zamanı neftin bir barrelinin orta illik qiyməti və bu qiymətin ortamüddətli dövrə şamil edilməsi, ortamüddətli dövrdə icmal büdcənin xərclərinin yuxarı həddinin təsdiq olunması və qeyri-neft baza kəsirinin ardıcıl sürətdə azaldılması ilə bağlı qərarlar qəbul olunub”, - deyə nazir bildirib.

Kollegiya iclasında çıxış edən nazirliyin Büdcə şöbəsinin müdiri Fazil Fərəcov və Büdcə siyasəti və makroiqtisadi təhlil şöbəsinin müdiri Əmin Muradov 2020-ci il dövlət büdcəsinin və icmal büdcənin layihəsi, əsas gəlir və xərc istiqamətləri, habelə növbəti il və ortamüddətli dövrə icmal və dövlət büdcəsinin makro-fiskal çərçivəsi ilə bağlı məlumat veriblər.

Sonda Maliyyə Nazirliyinin kollegiyası Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsinin və icmal büdcənin layihələrini bəyənərək Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim olunmasına dair qərar qəbul edib.

**AZƏRTAC**

*Pambıq yığımı*

# Texnikalar hazır vəziyyətə gətirilir

**Respublikada pambıq yığımına son hazırlıq işləri həyata keçirilir. Cari il ərzində pambıqçılıq rayonlarında əkilən pambığın becərilməsi üçün bütün qüvvələrdən maksimum istifadə edilib və fermerlərin daha çox məhsul götürmələri üçün bütün mümkün şərait yaradılıb. Bu barədə “Aqrolizinq” ASC-nin aparıcı məsləhətçisi Rövşən Amoyev məlumat yayıb.**

Məlumatda deyilir ki, “Aqrolizinq” ASC tərəfindən pambıqçılıq sahəsində ixtisaslaşmış hüquqi və fiziki şəxslər vaxtlı-vaxtında texniki vasitələrlə, mineral gübrələrlə təmin edilib, xüsusilə də pambıq əkini həyata keçirildikdən sonra sahələrin pambıq sovkası və pambıq mənənəsi kimi zərərvericilərdən qorunmasını təmin etmək məqsədi ilə pestisid və insektisidlərin 70 faiz güzəştlə satışı həyata keçirilib. Eyni zamanda, əkin prosesini sürətləndirmək məqsədi ilə mexanizatorlar üçün sürücülük kursları təşkil olunub və kursları uğurla başa vuran şəxslərə sertifikatlar təqdim edilib.

Son hazırlıq işləri ilə əlaqədar pambıq əkini sahələri yığıma hazırlanır, sahə kənarları hamarlanır, şirkətlər və “Aqrolizinq” ASC-yə məxsus pambıq yığımında və daşınmasında istifadə edilən kənd təsərrüfatı texnikaları hazır vəziyyətə gətirilir, digər zəruri aqrotexniki və təşkilati tədbirlər həyata keçirilir.

Hazırda ölkə üzrə 411 ədəd pambıqyığan kombayn hazır vəziyyətə gətirilib ki, bunun 123 ədədi “Aqrolizinq” ASC-nin, 288 ədədi isə özəl şirkətlərin payına düşür. Bundan başqa, “Aqrolizinq” ASC-nin rayon bölmələrinin istifadəsində 125 ədəd “Belorus-80X” tipli traktor, 220 ədəd qoşqu mövcuddur. Cari ildə respublika üzrə 21 rayonda 100111,7 hektar sahədə pambıq əkini həyata keçirilib ki, bunun 96240,8 hektarı hüquqi şəxslərə, 3870,89 hektarı fiziki şəxslərə məxsusdur.



**Yığım mövsümündə pambıqçılıq sahəsində ixtisaslaşmış hüquqi şəxslərə pambıq yığımını vaxtında və keyfiyyətlə başa çatdırmaq üçün regional nümayəndəliklərimizin və rayon bölmələrimizdən 123 ədəd pambıqyığan kombaynın işlərə cəlb edilməsi nəzərdə tutulmuşdur.**

**Qeyd edək ki, artıq pambıqçılıq rayonlarında becərmə ilə bağlı bütün proseslər başa çatdırılıb və yığıma hazırlıq prosesi gedir. İlkin olaraq, pambıqyığan kombaynla məhsulun toplanacağı sahələrdə defolyasiya işlərinə başlanılıb. Belə ki, yığımdan əvvəl pambıq kollarında yarpaqlarının tökülməsi üçün defolyant vurulur, 10-12 gün sonra isə pambıqyığan kombaynlar yığıma başlayır.**

Hazırda “Aqrolizinq” ASC-nin rayon bölmələrinin gübrə anbarlarında biostimulyatorlar, defolyasiyanı həyata keçirmək üçün defolyantlar dövlət tərəfindən müəyyən edilmiş 70 faiz güzəştlə pambıqçılıqla məşğul olan fiziki və hüquqi şəxslərə satışı həyata keçirilir.

**Nəriman CAVADOV,**
**“Respublika”.**

# Ağstafada üzümçülüyün əvvəlki şöhrəti qaytarılır

Respublikamız üçün ənənəvi sayılan sahələrdən biri də üzümçülükdür. Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, Azərbaycan ikinci dəfə müstəqillik qazandıqdan sonra bir sıra sahələrlə yanaşı, üzümçülüyün inkişafı da iflic vəziyyətinə düşdü. Ancaq ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra ölkə iqdisadiyyatında, o cümlədən üzümçülükdə dirçəliş başladı. Bu gün Heydər Əliyev kursunun layiqli davamçısı, dövlətimizin başçısı cənab İlham Əliyevin düşünülmüş siyasəti nəticəsində Azərbaycanda qeyri-neft sektorunun, o cümlədən aqrar sahənin inkişafı, iqtisadiyyatın şaxələndirilməsi sürətlə davam etdirilir. Aqrar sahəyə dövlət tərəfindən diqqət və qayğı öz bəhrəsini verir. Respublikanın hər yerində olduğu kimi, Ağstafa rayonunda da bu gün aqrar sahə özünün inkişaf dövrünü yaşayır.



Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı Nizaməddin Quluyevlə söhbət zamanı bildirdi ki, Azərbaycan Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamları ilə aqrar sahəyə dövlət tərəfindən göstərilən diqqət, verilən subsidiyalar, olunan güzəştlər və digər mühüm tədbirlər öz bəhrəsini verir. Dövlətimizin başçısı çıxışı zamanı demişdir ki, biz üzümçülüyün inkişafına xüsusi diqqət yetirməliyik. Azərbaycanda vaxtilə ulu öndər Heydər Əliyevin səyləri və təşəbbüsü nəticəsində üzümçülük çox sürətlə inkişaf etmişdir. Dövlət başçısının 2011-ci il 15 dekabr tarixli 1890 nömrəli sərəncamı ilə “2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı” təsdiq olunmuşdur. Bu proqramdan irəli gələn vəzifələr rayonda uğurla icra olunur. Ağstafada üzümçülüyün inkişaf etdirilməsində innovativ metodlardan istifadə olunur. Bu qiymətli bitkinin faydaları və gəlirli sahə olması rayonda daim təbliğ olunur. İcra başçısı vurğuladı ki, növbəti illərdə üzümçülüyün inkişafına münbit şərait yaradılacaq, yeni üzüm bağları salınacaq və sözsüz ki, yüksək aqrotexniki qulluq nəticəsində bol məhsul əldə olunacaqdır. Hazırda Ağstafada 476,4 hektarı üzüm bağı mövcuddur. Bundan 410 hektarı bar verən, 66,4 hektarı isə sonradan salınmış cavan bağlardır.

Biz üzümçülüklə məşğul olan bir neçə təsərrüfatın işi ilə maraqlandıq. Əvvəlcə rayonun nümunəvi təsərrüfatlarından olan Pirili kəndindəki Akif Allahverdiyevin rəhbərlik etdiyi təsərrüfata baş çəkdik. Təsərrüfat rəhbəri qeyd etdi ki, əvvəllər aqrar sahənin başqa sahəsi ilə məşğul olublar. Sonradan gəlirli sahə olan üzümçülüyə üstünlük vermişlər. Təsərrüfatda 60 ha üzüm bağı yüksək aqrotexniki qaydada becərilir. Bağda müxtəlif texniki və süfrə sortları yetişdirilir. Əsasən “Moldova”, “Təbrizi”, “Ağadayı” süfrə sortları və “Kabardina Savilye” texniki sortu becərilir. Qeyd etmək lazımdır ki, texniki sort üzümün tingləri Fransadan gətirilmişdir. Hazırda süfrə sortlarının qızğın yığımı aparılır. Təsərrüfatda 30 nəfər daimi, 30-40 nəfər isə mövsümi işlə təmin olunmuşdur. İşlərin normal aparılması üçün kifayət qədər kənd təsərrüfatı texnikaları vardır. Bağlara verilən mineral gübrələr dövlət tərəfindən 70% güzəştli qiymətlə fermerlərə satılır. Fermer dövlət tərəfindən üzümçülüyün daha sürətli inkişafını təmin etmək üçün hər hektara verilən 50 AZN subsidiyanı yüksək qiymətləndirdi. Təsərrüfat rəhbəri yaxın gələcəkdə məhsulun normal saxlanması üçün soyuducu kameranın inşa olunacağını qeyd etdi.

Rayonun böyük yaşayış məntəqələrindən olan Poylu kəndində də əhalinin üzümçülüyə marağı gündən-günə artır. Fermer Qədim Qədimovun rəhbərlik etdiyi təsərrüfatda da ürəkaçan mənzərə ilə qarşılaşdıq. Bağda becərilmədə mütərrəqi üsullardan istifadə olunması bol məhsula zəmin yaratmışdır. Bu təsərrüfatda da üzüm yığımı sürətlə davam etdirilir.

Əldə olunan məhsulun 1 kq-ı 1 manata satılır. Bu qiymət fermerləri tam razı salır. Təsərrüfatda 5 nəfər daimi, 15-20 nəfər isə mövsümi işlə təmin olunur. Verilən məvacib işçilərin ürəyincədir. Fermerlərlə söhbət zamanı onlar təkliflə çıxış edərək bildirdilər ki, rayonda soyuducu kameralar, ən başlıcası isə şərab emalı müəssisələri yaradılsın. Belə olan halda məhsul itkisi tam aradan qaldırılar. Eyni zamanda, istehsal olunan müxtəlif şərab məhsulları “Ağstafa brendi” altında satışa çıxarılar. Rayonun digər yaşayış məntəqələrində də üzümçülüyün inkişafında ürəkaçan mənzərə ilə qarşılaşmaq olar.



Qeyd etmək lazımdır ki, ötən il Ağstafada hər hektardan 172 sentner üzüm götürülmüşdür. Cari ildə aparılmış düzgün becərilmənin nəticəsidir ki, bu rəqəm 190-200 sentner proqnozlaşdırılır.

Göründüyü kimi, üzümçülüyün inkişafı rayon iqtisadiyyatına müsbət təsir göstərməklə yanaşı, insanların işlə təminatında da müstəsna rol oynayır. Əminliklə qeyd etmək lazım olar ki, növbəti illərdə Ağstafada üzüm bağlarının sahəsi daha da genişləndiriləcəkdir.

**Vəli VƏLİYEV,**
**“Respublika”.**

# Şəhidlərin xatirəsini əbədiləşdirən muzey

**Dağlıq Qarabağ müharibəsinin canlı şahidi və fəal iştirakçısı Əlövsət Qasımov barədə qısa məlumat verməzdən əvvəl ilk öncə, 80-ci illərin sonlarında baş verən proseslərə qısa olaraq nəzər salaq.**

Xalqımız Qarabağ faciəsinin ağrı-acılarını yaşayır, Azərbaycanın dilbər guşəsi Dağlıq Qarabağ və ona bitişik 7 rayon Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. Ermənistanla Azərbaycan arasında 1994-cü ilin mayında imzalanmış Bişkek protokolu - atəşkəs sazişindən sonra ATƏT-in Minsk Qrupunun vasitəçiliyi ilə tərəflər arasında danışıqlar davam etdirilir. Xalqımız qəsb edilmiş torpaqlarımızın erməni əsarətindən azad edilməsində möhtərəm Prezidentimiz İlham Əliyevin səylərinin real və müsbət nəticələnəcəyinə böyük inam bəsləyir.

Həmin qanlı-qadalı illərin canlı şahidi, Qarabağ qazisi, ərazilərimizin bütövlüyü uğrunda gedən döyüşlərdə yaxından iştirak etmiş qeyrətli vətəndaşımız, keçmiş döyüşçü Əlövsət Qasımov 1988-1996-cı illər ərzində Qarabağda gedən ağır döyüşlərdə erməni faşistlərinin xalqımızın başına gətirdiyi müsibətlərin canlı şahididir. Əlövsət müəllim qanlı faciələri əks etdirən fotoşəkilləri, xatirələri, vətənpərvərlik fəaliyyətini göstərən sənədləri ilə özünü respublikamızda millət sevən insan kimi tanıtmışdır. Onun fədakarlığı haqqında müxtəlif mətbu orqanlarında məqalələr, müsahibələr, məlumatlar dərc edilmiş, bir neçə televiziya və radio verilişləri hazırlanmışdır. Əlövsət Qasımov Qarabağ döyüşləri zamanı özünün vətənpərvərlik əməlləri ilə hamının hörmətini qazanmışdır.



Çünki bu qeyrətli Vətən övladının 8 illik döyüş yolu, Qarabağ həqiqətlərinin dünyaya çatdırılması istiqamətindəki 12 illik ərzində müstəsna fəaliyyəti gözlərimiz qarşısında baş vermişdir. Əlövsət Zöhrab oğlu Qasımov 1988-ci ildə Qərbi Azərbaycanın Vedibasar rayonunun Yengicə kəndindən məcburi qaçqın düşmüşdür. Tərtər rayon Bəyimsarov kəndində Kənd Mədəniyyət Evinin direktoru işləmişdir. Qarabağ müharibəsinin ilk günlərindən 4 qardaşı ilə birlikdə könüllü olaraq döyüş əməliyyatlarında 8 il yaxından iştirak edib, misli görünməmiş qəhrəmanlıqları ilə döyüşçülərə nümunə olmuşdur.

1991-1992-ci ildə o, bir neçə dəfə Naxçıvana gedərək, ümummilli lider Heydər Əliyevlə görüşmüş, ulu öndərin dəyərli tövsiyələri və göstərişləri ilə müharibənin dəhşətli faciələrinin sənədləşdirilməsi, tarixin saxtalaşdırılmaması naminə, real faktların gələcək nəsillərə çatdırılması üçün yorulmadan fəaliyyət göstərmişdir. Erməni əsirliyində hesab edilən, itkin düşdüyü güman olunan şəhidlərimizi döyüş meydanlarından çıxararaq, şəxsiyyətlərini müəyyən etmişdir. Onlardan 950 şəhidin nəşi məhz Əlövsət Qasımovun təşkilatçılığı ilə ailələrinə göndərilmişdir. O, eləcə də erməni vəhşiləri tərəfindən tanınmaz hala salınmış, başı kəsilərək min bir işgəncəyə məruz qalmış şəhidlərimizin hər birinin fotoşəklini çəkərək, erməni vandalizmini ifşa edən çox qiymətli tarixi fotosalnamə yaratmışdır. Müharibənin dəhşətlərini öz gözləri ilə görən, hər bir şəhidin faciəsini onunla bərabər qəlbən yaşayan Ə.Qasımov canlı şahidi və iştirakçısı olduğu döyüşlərin hər anını lentə alaraq, tarixi düşmənimiz olan ermənilərin qəddarlıqlarını bu gün bütün dünyada inkaredilməz faktlarla ifşa edir. Onun çəkdiyi fotoşəkillər dünyanın müxtəlif ölkələrində, həmçinin öz vətənimizdə sərgilərdə dəfələrlə nümayiş etdirilmişdir. Eyni zamanda, Əlövsət Qasımov erməni ordusunun əsgərlərinə məxsus 1017 avtomat silahı döyüş gedən ərazilərdən toplayaraq, rəsmi sənədlərlə Azərbaycan ordusuna təhvil vermişdir.

Bundan başqa, o, Qarabağ döyüşlərində 38 hərbi cinayətin üstünü açmışdır. "General Əli bəy" adı ilə tanınan bu məşhur qəhrəman döyüşçünün cəbhədə göstərdiyi misilsiz xidmətləri: "Müharibənin canlı ensiklopediyası", "Erməni vandalizmi", "Başsız meyit," "Şahid şəhidlər haqqında," "Qanlı köynəklər", "Ölümlə üz-üzə", "Sonsuz erməni vandalizminin iç üzü", "Oğurlanmış tarixi soyqırım", "Sağlamlığın sirri", "Erməni terroru", "Türklərə qarşı törədilmiş erməni terrorunun qısa xronikası", "Heydər Əliyevin həyatının hər anı bir məktəbdir" adlı kitablarda öz əksini tapmışdır. Onun böyük vətənpərvərlik fəaliyyətindən bəhs edən "Ruhumun harayı" və "Qarabağ çağırır bizi" sənədli filmlər respublikamızda və xarici ölkələrdə nümayiş olunur. Ə.Qasımov 1996-cı ildə ordu sıralarından tərxis olunub. O, xalqını, Vətənini, dövlətini, Prezidentini sevən əsl Vətən təəssübkeşidir.

Belə bir vətənpərvər oğul Qarabağ müharibəsində erməni vəhşiliyinin qurbanı olmuş şəhidlərimizin döyüş meydanlarından çıxarılmasında misli görünməmiş işlər görmüşdür. Amma, düşünməmişdir ki, bu işlərdə ağır yoluxucu infeksiyaya yoluxa bilər. Ə.Qasımov Qarabağda çəkdiyi fotolardan ibarət İstanbul şəhərində 11 günlük sərgi keçirərkən onun xəstəliyi şiddətlənmiş və həkimlərin səyi nəticəsində vəziyyəti yaxşılaşmışdı. Vətənpərvər döyüşçü 19 ildir ki, Suraxanı rayonunda 267 saylı uşaq bağçasında ailəsi ilə birlikdə yaşayır. Hazırda ümummilli liderimizlə bağlı "Heydər Əliyevin həyatının hər anı bir məktəbdir" memuarı üzərində işləyir. O öz şəxsi vəsaiti hesabına 22 iyul 2013-cü ildə Nəsimi rayonu, 20 Yanvar küçəsi, 2/51, mənzil 18 A ünvanda 110 kvadratmetr yerdə "Erməni vandalizminin iç üzü" adlı daimi fotosərgi açıb. Siz hər zaman bu sərgiylə yaxından tanış ola bilərsiniz. Əlövsət Qasımov "Həqiqət" Tarixi Araşdırmalar İctimai Birliyinin təsisçisi və sədridir. O, 2014-cü ilin 23-26 fevral tarixlərində, Xocalı soyqırımının 22-ci ildönümü ərəfəsində Türkiyənin Van və İğdır şəhərlərində "Xocalıya ədalət!" kampaniyası çərçivəsində öz fotosərgiləri ilə türk xalqlarına Qarabağda ermənilərin törətdikləri vəhşilikləri ətraflı çatdırmışdır. Eyni zamanda, Van və İğdır şəhərlərində keçirilən tədbirlərdə Əlövsət Qasımovun çıxışları maraqla qarşılanmışdır.

Onu da qeyd edək ki, 2007-ci ildə təsis edilmiş "Qarabağ Həqiqətlərini Beynəlxalq Aləmə Tanıtma" İctimai Birliyi 2017-ci ilin iyun ayının 29-dan etibarən "Həqiqət" Tarixi Araşdırmalar İctimai Birliyi adı altında öz fəaliyyətini davam etdirir. Birliyin nəzdində Qarabağ müharibəsində şəhid olan və erməni işğalçılarının Xocalıda və Qarabağda törətdikləri vəhşiliklərdən bəhs edən fotoşəkillərdən ibarət Şəhidlər muzeyi yaradılmışdır. Muzeyin yaradılmasında əsas məqsəd Qarabağ həqiqətlərinin nəsildən-nəslə çatdırılmasını, erməni quldurlarının xalqımıza qarşı törətdikləri terroru, misli görünməmiş dəhşətli vəhşilikləri tariximizin yaddaşına əbədi həkk etməkdən ibarətdir. Muzeydə təşkil olunan sərgilərdə orta və ali məktəblərin şagird, tələbə heyətinin, sadə vətəndaşların, ictimai xadimlərin davamlı iştirak etməsi xalqımızın bütün təbəqələrinin ölməz Şəhidlərimizin ruhuna olan sonsuz hörmət və ehtiramın bariz göstəricisidir. Muzeyin yaradılması və fəaliyyəti gənclərimizin hərbi-vətənpərvərlik ruhunda tərbiyə olunmasında da mühüm rol oynayır. Vurğulayım ki, bu günə qədər Şəhidlər muzeyini millət vəkilləri, general və digər təbəqələrdən ibarət 27870 nəfər ziyarət etmişdir.

Muzeyə olan maraq günü-gündən artmaqdadır. Ayrı-ayrı idarə və təşkilatların kollektivləri tez-tez muzeydə olur, şəhidlərimizin göstərdikləri qəhrəmanlıq, şücaətləri ilə bir daha yaxından tanış olur, onların ruhuna, göstərdikləri qəhrəmanlıqlara dərin hörmətlərini bildirirlər. Muzeydə təşkil olunmuş tədbirdə Xətai rayon Su-kanal İdarəsinin çoxlu sayda işçiləri də iştirak edirdi. Onlara muzey və onun fəaliyyəti, Qarabağ uğrunda gedən döyüşlərdə qəhrəmancasına həlak olmuş şəhid oğullarımız barədə o döyüşlərdə iştirak etmiş və öz həyatını böyük təhlükə altında qoyaraq şücaətlər göstərmiş "Həqiqət" Tarixi Araşdırmalar İctimai Birliyinin sədri Əlövsət Qasımov geniş məlumat verdi. Onlar muzeydə şəhidlərin qəhrəmanlıq salnaməsini özündə əks etdirən stend-fotoşəkillərə baxdılar. Muzeylə tanışlıq onlarda böyük təəssürat yaratdı.

**Əli SADIQOV,**
**"Respublika".**






# "Ətraf mühitin iqtisadiyyatı"




**Azərbaycan coğrafiya elminin görkəmli nümayəndəsi olan Zahid Səttar oğlu Məmmədov 1947-ci ildə Zəngilan rayonunun Baharlı kəndində ziyalı ailəsində anadan olub. Böyük Baharlılar nəslindən olan Zahid Məmmədov 1966-cı ildə orta məktəbi, 1970-ci ildə ali məktəbi, 1976-cı ildə Azərbaycan MEA Coğrafiya İnstitutunda əyani aspiranturanı bitirmişdir. O, 1980-ci ildə namizədlik dissertasiya işini, 1996-cı ildə doktorluq dissertasiyasını müvəffəqiyyətlə müdafiə edərək coğrafiya elmləri doktoru alimlik elmi dərəcəsini, 2005-ci ildə professor elmi adını almışdır.**

Professor Zahid Məmmədov 200-ə yaxın elmi-kütləvi və 8 elmi sanballı kitabın müəllifidir. Onun yazdığı "XXI əsr: İqtisadi inkişafın nəqliyyat faktoru" Bakı, 2002, "Azərbaycan Respublikasının xarici iqtisadi əlaqələri" Bakı, 2004, "Regionların iqtisadi inkişaf problemləri" Bakı, 2007, "Təbiətdən istifadənin iqtisadiyyatı" Bakı, 2010, "Azərbaycan Respublikasının region ölkələrinə inteqrasiyası" Bakı, 2015, "Naxçıvanın təbii sərvətləri" Bakı, 1993, "Böyük Qafqazın təbii resursları" Bakı, 1990, "Ətraf mühitin iqtisadiyyatı" Bakı, 2019 Azərbaycan elminə böyük töhfələr vermişdir.

Müəllifin qələmə aldığı 8-ci kitabı olan "Ətraf mühitin iqtisadiyyatı" adlı dərs vəsaiti iqtisad yönümlü ali məktəblərin bakalavr pilləsində oxuyan tələbələr və həmçinin, magistrlər üçün nəzərdə tutulmuşdur. Dərsliyin elmi redaktoru akademik Ziyad Səmədzadə, rəyçilər isə Əməkdar elm xadimi, iqtisad elmləri doktoru, professor Əli Əlirzayev, coğrafiya elmləri doktoru, professor Çingiz İsmayılov, coğrafiya elmləri doktoru, professor Ağazeynal Qurbanzadə, iqtisad elmləri doktoru, professor Amil Məhərrəmov, coğrafiya elmləri doktoru Nəriman Paşayevdir.

Dərs vəsaiti 19 fəsildən və 350 səhifədən ibarət olmaqla iqtisad yönümlü ali məktəblərdə tədris üçün nəzərdə tutulmuşdur.

"Ətraf mühitin iqtisadiyyatı elminin nəzəri və metodoloji əsasları" adlanan birinci fəsildə müəllif ölkə və xarici ölkə mütəxəssislərinin tədqiqatlarına əsaslanaraq kursun məzmunu, elmi-nəzəri əsasları, məqsəd və vəzifələri, predmeti, metodologiyası və elmlər sistemində tutduğu mövqe elmi dəlillərlə əsaslandırılır. Xüsusilə iqtisad elminin görkəmli nümayəndələri olan Adam Smit, David Rikardo, C.Keyns və b. ətraf mühit və təbii sərvət haqqında irəli sürdüyü ideyalardan istifadə etməklə bu elmin nəzəri əsasları və metodları müəyyənləşdirilir.

"Ətraf mühitlə cəmiyyətin qarşılıqlı əlaqələrinin iqtisadi əsasları" adlanan ikinci fəsildə ətraf mühitin "məkan və zaman" sistemində formalaşması və inkişaf qanunauyğunluqları araşdırılır. Ətraf mühitin formalaşmasında mühüm rol oynayan geoloji eralarla cəmiyyətin inkişafında əsas götürülən ictimai-iqtisadi formasiyaların dialektik inkişaf qanunauyğunluqları müəyyənləşdirilir. Eyni zamanda, ətraf mühitin formalaşmasında və təbii resursların əmələ gəlməsində geoloji eraların: Arxey, Protezoy, Paleozoy, Mezazoy, Kaynazoy eraları və onların dövrlərinin mühüm rolu olmuşdur. Təbiət sanki bu geoloji eralarda sonrakı cəmiyyətin və yaxud istehlakçısının meydana gəlməsi üçün təbii sərvətlərin əmələ gəlməsinə təkan vermişdir. Cəmiyyət özünün təkan mərhələsində beş ictimai-iqtisadi formasiyadan keçib gəlmiş təbiətin bəxş etdiyi sərvətlərdən istifadə etməklə özünün həyat tərzini yaratmış və məhsuldar qüvvələri inkişaf etdirmişdir. Müəllif cəmiyyətin və ətraf mühitin inkişaf dinamikasını müqayisəli şəkildə təhlil etmiş, cəmiyyətin inkişafı nəticəsində antropogen amillərin ətraf mühitə təsirinin intensivləşməsi prosesini iqtisadi cəhətdən əsaslandırmışdır.

"Ətraf mühit və davamlı iqtisadi inkişaf " adlı üçüncü fəsildə ətraf mühitdən istifadənin dayanıqlı inkişaf qanunauyğunluqları, həmçinin təbiət-cəmiyyət sisteminin davamlı inkişaf parametrləri təhlil olunur. Ətraf mühitdən istifadəyə dair qlobal və regional səviyyədə təbii sərvətlərin təsnifatı aparılmış, iqtisadi sahələrin inkişafında olan mövqeyi iqtisadi baxımdan qiymətləndirilir. İqtisadi sahələrin inkişafında mühüm rol oynayan yanacaq enerji, kimya, sənaye, metallurgiya, tikinti və s. sənaye əhəmiyyətli resursların təsnifatlaşdırılması aparılmışdır. Davamlı inkişafın iqtisadi əsasları olan Litosfer, Hidrosfer, Atmosfer və Biosferdə olan resursların potensialı əsas götürülməklə kompleks istifadə olunması istiqamətləri müəyyənləşdirilir.

"Ətraf mühitin resurs potensialı və innovativ iqtisadi inkişaf" adlanan dördüncü fəsildə müəllif iqtisadi inkişafın əsasını təşkil edən iqlim, torpaq, su, meşə resurslarının qlobal və regional miqyasda təhlilini aparmış, iqtisadi sahələrin inkişafında olan təsir mexanizmləri aşkar olunmuşdur. Qeyd olunan resursların tarixən cəmiyyətin məskunlaşmasında və məhsuldar qüvvələrin inkişafında, istehsal sahələrinin ərazi təşkilində mühüm əhəmiyyət kəsb edən resurslar mənbəyi kimi qiymətləndirilir. Torpaq və su ehtiyatlarının təhlilindən aydın görünür ki, Yer kürəsinin ümumi sahəsi 510 milyon kvadratkilometr olmaqla bunun 361 milyon kvadratkilometri dünyanın su ehtiyatlarının və 149 milyon kvadratkilometri isə quru sahənin payına düşür. Təhlillərdən aydın olur ki, bəşəriyyət yeyinti məhsullarına olan tələbatın 90 faizdən çoxunu torpaqdan alır. Dünyanın ümumi torpaq fondunda suvarma şəbəkəli torpaqlar kənd təsərrüfatına yararlı torpaqların 55,3 faizini təşkil edir. Bu fəsildə qlobal miqyasda torpaqdan istifadənin iqtisadi göstəriciləri əks olunmuşdur.

"Enerji əhəmiyyətli resursların iqtisadiyyatı" adlı beşinci fəsildə enerji əhəmiyyətli təbii resursların geoloji inkişaf tarixindən asılı olaraq Yer kürəsində paylanması qanunauyğunluqları araşdırılır. Enerji əhəmiyyətli resursların təsnifatı və iki istiqamətdə təhlili aparılmışdır.

Maye yanacaq ehtiyatlarına gəldikdə isə dünyanın ümumi neftlə zəngin olan sahəsi 45 milyon kvadratkilometrdən artıqdır. Ümumi ehtiyatı isə 150 milyard tondan artıq olduğu müəyyənləşdirilir. Region ölkələri üzrə maye enerji resurslarının kəmiyyət və keyfiyyət göstəriciləri dərs vəsaitində təhlil olunmuş və enerji tutumlu iqtisadi sahələrin inkişafında olan mövqeyi iqtisadi cəhətdən qiymətləndirilir. Həmçinin, iqtisadi sahələrin inkişafında hidroenerji əhəmiyyətli resursların rolu araşdırılır. Hidroenerji ehtiyatları dünya energetika sənayesinin inkişafında təsiredici qüvvəyə malikdir. Aparılan təhlillərdən aydın olur ki, dünya hidroenerji ehtiyatı 9,7 mlrd. kvt. saat olub, onun 27,3 faizi Xarici Asiyanın, 19,4 faizi Latın Amerikasının, 32,8 faizi Şimali Amerika və Afrikanın, 2,3 faizi Xarici Avropanın, 11,2 faizi Müstəqil Dövlətlər Birliyi (MDB) ölkələrinin, 2 faizi isə Avstraliya və Okeaniyanın payına düşür.

"Metallurgiya sənaye əhəmiyyətli təbii resursların iqtisadiyyatı" adlanan altıncı fəsildə metallurgiya sənaye əhəmiyyətli təbii resursların ərazi üzrə paylanması qanunauyğunluqları elmi cəhətdən təhlil olunur və iqtisadi qiymətləndirilməsi müəyyənləşdirilir. Metallurgiya sənaye əhəmiyyətli təbii resursların qlobal və regional istiqamətdə təhlillərindən aydın olur ki, dünya dəmir filizinin ümumi ehtiyatı 400 milyard tondan artıq olduğu müəyyənləşdirilmiş, təsdiq olunmuş ehtiyatı isə 250 milyard ton aşkar edilmişdir. Metallurgiya sənaye əhəmiyyətli təbii resursların təsnifatı aparılmış, qara və əlvan metallurgiyanın inkişafı üçün iqtisadi səmərəliliyin parametrləri müəyyən olunur.

"Kimya və meşə-kimya sənaye əhəmiyyətli resursların iqtisadiyyatı" adlı 7-ci fəsildə kimya sənaye əhəmiyyətli təbii resursların ətraf mühitdə zəngin potensialının olmasına baxmayaraq, bu növ resursların ilkin istehsalçıları Avropanın region ölkələri olmuş, sonradan isə həmin resursların müntəzəm şəkildə istehsal dövriyyəsinə cəlb olunması dünyanın bir çox ölkələrində sürətli inkişafa təsir göstərmişdir. Kimya sənaye əhəmiyyətli təbii resurslar qrupuna neft təbii qaz, kokslaşan kömür, yod, brom, mineral duzların təhlili aparılmış, iqtisadi potensialı dəyərləndirilməklə kimya sənaye sahələrinin inkişafında olan mövqeyi əsaslandırılır. Meşə-kimya sənayesinin inkişafı ilə əlaqəli təhlillər aparılmış, yerin meşə örtüyünün 4 milyon hektardan artıq olması kimya sənayesinin çoxsahəli inkişafına göstərdiyi təsir mexanizmləri çox qabarıq şəkildə aşkar olunur. Aparılan təhlillərdən aydın olur ki, meşə-kimya sənaye əhəmiyyətli meşələrin 60 faizdən çoxu 9 əsas ölkənin payına düşür ki, həmin ölkələr qrupuna Rusiya, Brazilya, ABŞ, Kanada, Çin, Konqo, Anqola və Perunu aid etmək olar.

"Aqrar sənaye resurslarının iqtisadiyyatı" adlı səkkizinci fəsildə əhalinin zəruri istehlak məhsullarına olan tələbatın ödənilməsində kənd təsərrüfatı əhəmiyyətli resursların iqtisadi qiymətləndirilməsi əsaslandırılır. Bunun üçün kənd təsərrüfatı əhəmiyyətli resursların ərazinin təbii-iqtisadi şəraitindən asılı olaraq təsnifatı aparılmış, təsərrüfatın ixtisaslaşmasına dair əsaslı təkliflər irəli sürülür. Dünyanın dağlıq və düzənlik əraziləri üçün regional istiqamətdə təhlillər aparılmış təsərrüfatın ixtisaslaşmasında oxşar və fərqli cəhətlər aşkar olunur.

"Kurort-rekreasiya və turizm resurslarının iqtisadiyyatı" adlanan doqquzuncu fəsildə kurort-rekreasiya təsərrüfatının formalaşması tədqiq olunmuş və rekreasiya resurslarının təsnifatı aparılmışdır. Başqa təbii resurslardan fərqli olaraq, kurort-rekreasiya əhəmiyyətli təbii resurslar əhalinin sağlamlığına xidmət edən və əmək qabiliyyətinin yüksəldilməsinə təsir edən təbii resurslar qrupundan ibarətdir. Dünya təcrübəsində rekreasiya əhəmiyyətli təbii resursların qiymətləndirilməsində bal sisteminin tətbiqidir. Həmin bal sistemi 1 baldan 5 baladək qəbul olunmaqla, hər bal sisteminin ərazinin rekreasiya ehtiyatlarından asılı olaraq qiymətləndirilməsi aparılmışdır. Kurort-rekreasiya ehtiyatları xarakterinə görə digər təbii resurslardan fərqlənərək iqlim, rekreasiya landşaftları, narın qum, mineral sular, müalicə əhəmiyyətli palçıqlar, tarixi mədəni və tarixi təbii abidələr, maddi tələbatı təmin edən təsərrüfat sahələri və s. daxil edilir.

"Təbii resursların istifadəsində ərzaq təminatının təhlükəsizliyi" adlı onuncu fəsildə ilk növbədə ərzaq yönümlü resursların iqtisadi təhlükəsizliyini təmin etmək üçün ətraf mühitdə mövcud olan resurslardan səmərəli şəkildə istifadə olunması və onun gələcək nəsillərə təhlükəsiz çatdırılması məsələləri ön plana çəkilir. Ərzaq yönümlü təbii resurslar istifadə xarakterinə görə üç qrupda cəmləşdirilir: birinci qrup resurslara istehsal dövriyyəsinə yönəldilmədən birbaşa əhalinin istehlakını təmin edən resurslardır ki, bunlara su, hava, günəş enerjisi daxil edilir; ikinci qrup resurslara isə ətraf mühitdə olan yabanı bitkilər, istehlak üçün lazım olan ov heyvanlarıdır; üçüncü qrupa daxil olan resurslara isə bilavasitə insanın əməli fəaliyyətində ətraf mühitdən istifadə olunmaqla əldə olunan məhsullardır.

"Təbii resurslardan kompleks istifadənin qlobal iqtisadi istiqamətləri" adlı on birinci fəsildə insan cəmiyyətinin tələbatını təmin edən qlobal istiqamətli təbii resursların qlobal və regional sahədə təhlilləri aparılır. Qlobal xarakterli təbii resurslar sırasına iqlim, torpaq, su, enerji ehtiyatları, həmçinin ərzaq təhlükəsizliyi və ekoloji təhlükəsizlik daxil edilir. Qeyd olunan təbii resursların insanın təsərrüfat sahələrində səmərəli şəkildə istifadə olunması onların tükənməsinin və ekoloji baxımdan mühafizə olunması problemləri araşdırılır. Qlobal və regional istiqamətdə təhlillər apararkən müəllif ölkə və xarici ölkə mütəxəssislərinin tədqiqatlarına istinad edərək qlobal xarakterli resursların təsnifatını vermiş, iqtisadi qiymətləndirilməsi aparılmışdır. Xüsusilə enerji əhəmiyyətli resurslardan səmərəli istifadə olunması, OPEK üzvü olan ölkələrin neft yataqlarının ərazi üzrə bölgüsü aparılmış və istismara cəlb olunması imkanları təhlil olunmuşdur.

"Ətraf mühitdən istifadənin hüquqi əsasları" adlı on ikinci fəsildə təbii resurslardan istifadənin hüquqi əsaslarının mahiyyəti, beynəlxalq səviyyədə qəbul olunmuş hüquqi normalar, "Ətraf mühitdən istifadənin iqtisadi ekoloji əsasları" adlanan on üçüncü fəsildə isə ekologiyalaşdırma siyasətinin mahiyyəti və xüsusiyyətləri araşdırılır.

"Bioloji resursların iqtisadi qiymətləndirilməsi" adlı on dördüncü fəsildə bioloji resursların təsnifatı, bioloji müxtəlifliyin sosial-iqtisadi konsepsiyası, istifadənin səmərəlilik aspektləri, "Azərbaycanın təbii resurslarının iqtisadi potensialı" adlı on beşinci fəsildə isə ərazinin geoloji inkişaf tarixi ilə əlaqəli olaraq təbii resursların ərazi üzrə yerləşməsi qanunauyğunluqları elmi əsaslarla təhlil olunmuşdur. "Azərbaycan yanacaq-enerji resurslarının iqtisadi potensialı və elmi-praktiki əhəmiyyəti" adlanan on altıncı fəsildə enerji resurslarının təsnifatı aparılmış və iqtisadi əhəmiyyəti əsaslandırılır.

"Ətraf mühitdən istifadənin mühafizəsi sahəsində beynəlxalq əməkdaşlıq" adlı on yeddinci fəsildə ətraf mühitdən istifadədə beynəlxalq əməkdaşlığın parametrləri Azərbaycanın təbii resurslarından istifadə zamanı beynəlxalq əməkdaşlığın iqtisadi əsasları təhlil olunur. Bir çox beynəlxalq layihələrin həyata keçirilməsi enerji sahəsində, aqrar sahədə və digər sənaye əhəmiyyətli təbii resursların istifadəsində BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO), Dünya Bankının Kənd Təsərrüfatı üzrə Beynəlxalq Fondu (İFAD), Beynəlxalq İnkişaf Assosiasiyası (GTZ), Türk İş Birliyi və Kalkınma Aynası (TİKA) və s. beynəlxalq təşkilatlarla iqtisadi əməkdaşlığın yaradılması iqtisadi sahədə nailiyyətlərin inkişafına göstərdiyi təsir araşdırılır.

"Ətraf mühitin istifadəsində nəqliyyat strukturunun rolu" adlanan on səkkizinci fəsildə təbii resursların istifadəsində nəqliyyatın ayrı-ayrı sahələrinin iqtisadi qiymətləndirilməsi araşdırılır. Nəqliyyat məhsuldar qüvvələrin ən vacib tərkib hissəsi olmaqla bütün cəmiyyətlərdə nəqliyyatın ən sadə formasından başlamış müasir nəqliyyatın bütün sahələri təhlil olunur.

"Təbii fəlakətlərin ətraf mühitə təsirinin qiymətləndirilməsi" adlı son fəsildə təbii fəlakətlərin ətraf mühitə olan təsiri araşdırılır. Təbii fəlakətlərin ətraf mühitə göstərdiyi təsir iki əsas faktorla müəyyənləşdirilir. Ekzogen amillər nəticəsində əmələ gələn təbii fəlakətlər; endogen amillər nəticəsində yaranan təbii fəlakətlər.

Aparılan təhlillərdən belə nəticəyə gəlmək olur ki, professor Zahid Məmmədovun uzunmüddətli tədqiqatlar əsasında yazdığı "Ətraf mühitin iqtisadiyyatı" adlı kitabı yalnız ali məktəb tələbələri, doktorantlar və müəllimlər üçün dərs vəsaiti olmayıb, təsərrüfat sahələrində çalışan, ətraf mühitlə daim təmasda olan hər bir şəxsin stolüstü kitabı olmalıdır.

**Ramiz MƏMMƏDOV,**
**Akademik.**

*İsmayıllı*

# Sumağallı və Sulut kəndlərində tibb məntəqələrinin açılışı





**Sentyabr ayının 6-da Yaponiya hökumətinin "Ot kökləri və insan təhlükəsizliyi qrant yardımı Proqramı" layihəsi çərçivəsində hazırlanan Sumağallı və Sulut tibb məntəqələrinin açılışı olub.**

Sumağallıda keçirilən ilk açılış mərasimində Yaponiyanın Azərbaycandakı səfiri Teruyuki Katori, İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı Mirdaməd Sadıqov, layihəni həyata keçirən QHT - "Gənclər İnkişaf Naminə" İctimai birliyinin rəhbəri Rasim Allazov, digər rəsmi şəxslər, kənd sakinləri, tibb işçiləri, müəllimlər, veteranlar, ağsaqqallar iştirak ediblər. Tədbir Azərbaycanın və Yaponiyanın Dövlət himnlərinin səsləndirilməsi ilə başlanıb.

İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı Mirdaməd Sadıqov çıxış edərək bildirib ki, dövlət müstəqilliyi illərində Azərbaycanla Yaponiya arasında işgüzar və diplomatik əlaqələr daha intensiv xarakter alıb. Bu əlaqələrin səmərəli nəticələri İsmayıllıda da öz əksini tapıb. Regionda ilk şəhər İsmayıllıdır ki, Yaponiyanın İto şəhəri ilə qardaşlıq və dostluq əlaqələri yaradıb. Şagird mübadilələri, distant yolla dil öyrənmək, nümayəndə heyətlərinin qarşılıqlı səfərləri bu əlaqələrin nəticəsi hesab edilməlidir. Yaponiya səfirliyinin dəstəyi ilə bu gün istifadəyə verilən tibb məntəqəsi də insan sağlamlığına qayğıdan irəli gəlir. Biz, Sumağallı sakinlərinə bəxş olunan bu layihəyə görə Yaponiya dövlətinə, səfirə minnətdarlığımızı bildiririk.

Səfir Teruyuki Katori çıxış edərək deyib ki, Azərbaycandan 7500 kilometr Şərqdə olan Yaponiya ilə ölkəniz arasında müstəqillik illərində çox möhkəm əlaqələr yaranıb. Bu əlaqələr başlanğıcını min illər bundan əvvəlki tarixdən - "İpək yolu" açılan zamandan götürür. Bu əlaqələrin nəticəsi olaraq ölkəmiz Azərbaycanda bir çox layihələr - uşaq bağçası, tibb məntəqəsi, məktəb, içməli su çəkilişi, suvarma sistemləri və sair layihələr həyata keçirib. Sumağallı tibb məntəqəsi İsmayıllıda 15-ci layihəmizdir. Çalışacağıq ki, əlaqələrimiz və layihələrimiz bundan sonra da davamlı olsun.

Arzu "Qadın inkişaf qrupu"nun rəhbəri Arzu Mirzəyeva və ağsaqqal ziyalı Hüseyn Xəlilov da çıxış edərək belə dəyərli, vacib sosial layihənin icrası üçün minnətdarlıqlarını bildiriblər.

Sonra tibb məntəqəsinə baxış keçirilib. Səfir uşaqlarla, ağbirçək qadınlarla, iştirakçı sakinlərlə şəkil çəkdirib.

Rəsmi iştirakçıların bir qrupu RİH başçısının birinci müavini Rövşən Ağayevlə birgə Sulut tibb məntəqəsinin açılışına gediblər.

Sumağallı və Sulut tibb məntəqələrinin tikintisinin birgə məbləği 89 min 270 ABŞ dolları təşkil edib.





# "Yaşıl Market" Ticarət Mərkəzi alıcılarını qəbul edir





**İsmayıllı şəhərində "İsgəndər ASA Holdinq Şirkətlər Qrupu" MMC-nin nəzdində yeni fəaliyyətə başlayan "Yaşıl Market" Ticarət Mərkəzi Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən genişmiqyaslı islahatların, sahibkarlığın inkişafı üçün yaradılan əlverişli şəraitin bariz nümunəsidir. Ticarət mərkəzi 5 hektar ərazini əhatə edir. Ərazinin 3 hektarı kənd təsərrüfatı və sənaye mallarının satış bazarından ibarətdir. Burada, habelə tikinti materiallarının satış bazarı, avtomobillər üçün 2 dayanacaq, namaz otağı, 22 yerlik otel, 3 yeməkxana və ilkin tibbi xidmət otağı da var.**

Sentyabrın 6-da İsmayıllıda Yaşıl Ticarət Mərkəzinin açılış mərasimi keçirilib.

Rayon icra hakimiyyətinin başçısı Mirdaməd Sadıqov ölkəmizin davamlı iqtisadi inkişafından söz açıb, yeni ticarət mərkəzində əhaliyə xidmətin yüksək səviyyədə təşkil olunduğunu söyləyib. O, ticarət mərkəzinin daim qonaq-qaralı olan İsmayıllıda küçə ticarətinin yığışmasına təsir göstərəcəyini qeyd edib.

Mərasimdə çıxış edən "İsgəndər ASA Holdinq Şirkətlər Qrupu" MMC-nin vitse-prezidenti Zərifə Quliyeva Yaşıl Ticarət Mərkəzinin əhaliyə yüksək səviyyədə xidmət göstərmək üçün yaradıldığını bildirib. Natiq bu gün Azərbaycanda Prezident İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın rəhbərliyi ilə həyata keçirilən sosial layihələrdən, insanların həyat səviyyəsinin gündən-günə yüksəldilməsi istiqamətində görülən işlərdən danışıb. MMC-nin vitse-prezidenti minimum əməkhaqqının, pensiyaların, dövlət qulluqçularının, dövlət büdcəsindən maliyyələşən digər kateqoriyadan olan işçilərin əməkhaqlarının artırılmasının ölkəmizdə insana göstərilən qayğının nümunəsi olduğunu vurğulayıb.

Zərifə Quliyeva ticarət mərkəzində xidmətin yüksək səviyyədə təşkil edildiyini, insanların rahatlığı üçün lazımi tədbirlərin görüldüyünü diqqətə çatdıraraq vurğulayıb ki, yaşlı və xəstə insanlar mərkəzdə elektron xidmətdən yararlana biləcəklər. Belə ki, sifariş verdikləri məhsullar onlara evlərində çatdırılacaq, daşınma pulsuz həyata keçiriləcək. Ayrılan 3 avtobus vasitəsilə şəhərin müxtəlif istiqamətlərindən ticarət mərkəzinə gəliş-gediş pulsuz həyata keçiriləcək. Bazar günləri müxtəlif istiqamətlərdən kənd sakinləri də bu cür xidmətlərdən yararlana biləcəklər.

MMC-nin vitse-prezidenti bildirib ki, hazırda ticarət mərkəzində 400-dən çox işçi çalışır. Yaxın günlərdə daha 60 nəfərin də işə götürülməsi gözlənilir. Burada vətəndaşlara, eləcə də sahibkarlara kənd təsərrüfatı və tikinti sahələrində ucuz və keyfiyyətli xidmət üçün müxtəlif adda xeyli texnika cəmlənib. İlin bütün fəsillərində sifarişlər qəbul edilir.

Açılış mərasimində AMEA-nın şöbə müdiri, professor Rəna Mirzəzadə, Azərbaycan Qadın Sahibkarlar Assosiasiyasının sədri Səkinə Babayeva, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin sektor müdiri Mehman Nəbiyev çıxış edərək mərkəzin kollektivini, eləcə də rayon sakinlərini təbrik edib, Azərbaycanın davamlı inkişaf yolunda olduğunu, insanlara xidmətin səviyyəsinin gündən-günə yaxşılaşdığını vurğulayıblar.

Sonda musiqiçilərin ifasında rəngarəng konsert proqramı verilib.

Qeyd edək ki, "Yaşıl Market" Ticarət Mərkəzində kənd təsərrüfatı məhsulları digər ticarət obyektlərindən 30-40 faiz, ət məhsulları 10-20 faiz, geyim əşyaları 30 faiz, məktəb ləvazimatları isə 40 faiz ucuz satılır. İdarəetmədə satış qiymətlərinə, habelə sanitar-gigiyenik qaydalara ciddi nəzarət mexanizmi qurulub. Ət kəsimi sexləri və məhsulların saxlanılması qida təhlükəsizliyi qaydalarına tam uyğundur. Hazırda 70 tonluq soyuducu istifadədədir.

**Rasim AMANOV,**
**"Respublika".**





## DÜNYA BUGÜN
*FAKTLAR, HADİSƏLƏR, ŞƏRHLƏR*

### ❑ DONALD TRAMPIN İMPİÇMENTİ ÜÇÜN NÖVBƏTİ CƏHD



ABŞ prezidenti Donald Trampa impiçment elan oluna bilər. Müvafiq qətnamə ABŞ Konqresinin Nümayəndələr Palatasında hazırlanır. "Sputnik" informasiya agentliyinin məlumatına görə, sənəd artıq hazır olmaq ərəfəsindədir. İmpiçment üzrə səsvermə isə artıq gələn həftə baş tuta bilər.

ABŞ-ın Ədliyyə Nazirliyinin siyasəti fəaliyyətdə olan prezidentləri izləməyə imkan vermədiyindən Nümayəndələr Palatası Donald Trampı keçmiş xüsusi prokuror Robert Müllerin Rusiyanın 2016-cı il seçkilərinə "müdaxiləsini" araşdırmasına mane olduğu üçün məsuliyyətə cəlb etməyə qadir yeganə qurumdur.

Eyni zamanda, bildirilir ki, Tampın vəzifə səlahiyyətlərindən sui-istifadə edərək rəsmi tədbirləri özünə məxsus olan kurortlarda təşkil etməklə varlanma imkanı da mübahisə predmeti ola bilər. Həmçinin prezidentə qarşı fotomodellərin susmaları üçün pul aldıqları iddiasının da irəli sürülməsi planlaşdırılır.

Donald Trampın vergi bəyannamələri, "Deutsche Bank"dakı maliyyə sənədləri, eləcə də, Rusiya prezidenti Vladimir Putinlə ünsiyyəti də diqqət altındadır.

Donald Tramp isə dəfələrlə demokratları bu tipli araşdırmalardan əl çəkərək ölkənin problemləri - məsələn, səhiyyə və infrastrukturla - məşğul olmalarını tövsiyə edib.

Məlumat üçün qeyd edək ki, ABŞ-da indiyədək üç dəfə impiçmentə cəhd olub. 1868-ci ildə Endryu Consona və 1998-ci ildə Bill Klintona qarşı impiçment elan edilib. Lakin bu prezidentləri Senat təmizə çıxarıb. 1969-1974-cü illərdə hakimiyyətdə olan Riçard Nikson isə Senatda dinləmələr başlanmadan öncə istefa vermişdi.

Sosioloji sorğuların nəticələrinə görə, amerikalıların 60 faizdən çoxu Donald Trampa qarşı impiçment elan edilməsinin əleyhinədir.

### ❑ BMT İQLİM DƏYİŞİKLİYİ İLƏ ƏLAQƏDAR XƏBƏRDARLIQ EDİB



BMT-nin insan haqları üzrə ali komissarı Mişel Baçelet iqlim dəyişikliyinin insan hüquqları məsələsində qlobal bir təhlükəyə çevrildiyini bəyan edib. "TRT" telekanalının verdiyi xəbərə görə, Mişel Baçelet Cenevrədə öz işinə başlayan İnsan Haqları Şurasının 42-ci sessiyanın açılışındakı nitqinin mühüm bir hissəsini iqlim dəyişikliyi mövzusuna həsr edib.

"İqlim dəyişikliyi dünyanın hər bir bölgəsinə təsir göstərən bir reallıqdır", - deyən M.Baçelet qlobal istiləşmənin səviyyəsinin insanlar üçün fəlakətli nəticələrinin olacağı ilə bağlı xəbərdarlıq edib.

Mişel Baçelet hazırda iqlimin qlobal səviyyədə fövqəladə vəziyyət aldığını vurğulayaraq, Dünya Səhiyyə Təşkilatının 2030-2050-ci illərdə iqlim dəyişikliyinin 250 min əlavə ölümə səbəb olacağını proqnozlaşdırıldığını xatırladıb.

İqlim dəyişikliyinin insan haqlarına, inkişafa və sülhə mənfi təsir etdiyini qeyd edən ali komissar deyib: "Dünya insan haqlarına qarşı heç vaxt bu ölçüdə bir təhdid görməyib. Bu hər hansı bir ölkənin, hər hansı bir qurumun, hər hansı bir siyasətçinin kənara çəkilə biləcəyi bir vəziyyət deyil".

Eyni zamanda, Mişel Baçelet iqlim dəyişikliyi ilə daha aktiv mübarizəyə çağırdı.

Verilən xəbərə görə, sentyabrın 27-ə qədər davam edəcək sessiyada Yəmən və Myanmada insan haqları problemlərinin hərtərəfli müzakirə olunması gözlənilir.

### ❑ YEREVANDA SON ANDA BAŞ TUTMAYAN QİYAMIN DETALLARI AÇIQLANIB



Yerevanda "Nubaraşen" istintaq təcridxanasında kütləvi qiyamın təşkilatçılarının adları məlum olub. Bu barədə "Sputnik" informasiya agentliyi erməni mediasına istinadən xəbər verib.

Bildirilir ki, istintaq təcridxanasında kütləvi qarşıdurmanı hazırda həbsdə olan və məhbuslar arasında xüsusi nüfuza malik Nverik Noqarqyuxski və Vaçik adlı şəxslər təşkil ediblər.

Belə ki, sentyabrın 5-i onlar artıq "zonaya baxmadıqlarını", həbsxana işçiləri və məhkumlar arasında problemlərin həllinə yardım etməyəcəklərini bildiriblər. Bundan əlavə, onlar məhbuslara yemək paylayan şəxslərə öz öhdəliklərini yerinə yetirməməyi, digər məhbuslara isə qiyama başlamağı tapşırıblar.

Məlumata görə, "Nubaraşen" təcridxanasının üçüncü və dördüncü korpuslarında "zonaya baxanların" tapşırığı ilə məhbuslar kamera və yemək verilən pəncərələri qırmağa başlayıblar. Sentyabrın 5-i saat 18-19 radələrində onlar həbsxana kameralarından istintaq təcridxanasının qorunan ərazisinə yanan predmetlər atıblar. Nəticədə yanğın baş verib. Dərhal hadisə yerinə yanğınsöndürən maşınlar cəlb olunub və yanğın söndürülüb.

Eyni zamanda, qiyamın baş verdiyi vaxtda "Nubaraşen" təcridxanasının qarşısında təxminən 30 maşın və 100-ə yaxın şəxs toplaşıb. Onlar arasında daha əvvəl bu həbsxanada məhkum olmuş şəxslər də olub.

Təcridxana əməkdaşları əraziyə xeyli insanın yığışdığını görərək bu barədə polis idarəsinə müraciət ediblər. Dərhal hadisə yerinə operativ polis qrupu cəlb olunub. Polislərin gəldiyini görən şəxslər ərazini tərk ediblər.

Xatırladaq ki, ötən həftə Ermənistanın ədliyyə naziri Rustam Badasyan bəyan edib ki, ölkə həbsxanalarında kütləvi qiyamın qarşısı alınıb.

### ❑ "TALİBAN"dan SÜLH DANIŞIQLARININ LƏĞVİ İLƏ BAĞLI AÇIQLAMA



"Taliban" radikal hərəkatı ABŞ-la sülh danışıqlarının ləğvindən sonra Əfqanıstanda öz mübarizəsini davam etdirəcəyini bəyan edib. Bu barədə "Sputnik" informasiya agentliyi "BBC"yə istinadən xəbər verib.

Taliblər iddia ediblər ki, danışıqlar və sülh sazişinin imzalanmasına dair proses son ana qədər öz məcrasında davam edib.

Eyni zamanda, taliblər bəyan ediblər ki, sülh danışıqlarının ləğvindən ən çox amerikalıların özləri zərər çəkəcəklər. "Taliban"nın açıqlamasında deyilir: "Biz xarici qüvvələr Əfqanıstandan çıxarılmayana qədər mübarizəmizi davam etdirəcəyik".

Bununla yanaşı "Taliban" hərəkatı ABŞ-ın danışıqlar masasına geri qayıdacağına da əminliyini bildirib.

Xatırladaq ki, daha əvvəl ABŞ prezidenti Donald Tramp 8 sentyabrda planlaşdırılmış "Taliban" liderləri və Əfqanıstan prezidenti Əşrəf Qani ilə görüşləri ləğv edib. O, həmçinin 12 nəfərin ölümü ilə nəticələnmiş Kabildəki terror aktından sonra Əfqanıstanda sülh yolu ilə nizamlanmaya dair danışıqlarda iştirak etməyəcəyini bəyan edib.

Donald Tramp özünün "Twitter" səhifəsində yazıb: "Praktiki olaraq hamıdan gizli bütün "Taliban" liderləri və ayrı-ayrılıqda Əfqanıstan prezidentinin bazar günü Kemp-Devid iqamətgahında mənimlə görüşü planlaşdırılırdı. Onlar Birləşmiş Ştatlara bu gün axşam gəliblər. Təəssüf ki, əlavə təsir vasitəsi yaratmaq üçün onlar əsgərlərimizdən birinin və daha 11 nəfərin ölümü ilə nəticələnmiş Kabil hücumunu həyata keçirdiklərini qəbul ediblər. Mən dərhal görüşü ləğv etdim və sülh danışıqlarından imtina etdim".

### ❑ GÜRCÜSTANDA XARİCİ AVİAŞİRKƏTLƏRƏ YENİ MƏHDUDİYYƏTLƏR TƏTBİQ OLUNACAQ



Gürcüstanda fəaliyyət göstərən xarici aviaşirkətlərə qarşı səs-küylə bağlı yeni məhdudiyyətlər tətbiq olunacaq. "Report" agentliyi xəbər verib ki, bu barədə Gürcüstanın Mülki Aviasiya Agentliyi məlumat yayıb.

Bildirilir ki, yeni qaydalar artıq Gürcüstan aviaşirkətlərinə qarşı tətbiq olunmağa başlayıb.

Məhdudiyyətlərin məqsədi Gürcüstandakı hava limanlarında yaranan səs-küyün minimuma endirilməsidir.

Verilən xəbərə əsasən, yeni qayda ilə Gürcüstan Avropa İttifaqının "Ümumi Aviasiya Məkanı Sazişi" ilə nəzərdə tutulan tənzimləməni tam yerinə yetirmiş olacaq.

Eyni zamanda, bildirilir ki, gələn ildən qüvvəyə minəcək məhdudiyyətlər xarici ölkələrin dövlət, humanitar yardım daşıyan, ölkədə fövqəladə hallarda istifadə olunan, qeyri-kommersiya və texniki məqsədlərlə uçuşlar həyata keçirən təyyarələrə şamil olunmayacaq.

### ❑ SUALTI RƏSƏDXANA DƏNİZİN DİBİNDƏN YOXA ÇIXDI



Elmi məlumatların toplanması üçün istifadə edilən stansiya Baltik dənizinin dibindən yoxa çıxıb. "Sputnik" informasiya agentliyinin verdiyi xəbərə görə, bu barədə Hemqolts adına Okean Araşdırmaları Mərkəzi məlumat yayıb.

Bildirilir ki, avqustun 21-dən etibarən rəsədxanadan heç bir siqnal alınmayıb. Səbəbləri araşdırmaq üçün oraya dalğıclar göndərilib. Lakin onlar stansiyanın yerində məlumatların ötürülməsi üçün kabelin qırıqlarından başqa heç nə tapmayıblar.

Qeyd edilir ki, elmi rəsədxana Almaniyanın şimal sahilləri yaxınlığındakı qadağan olunmuş zonada yerləşirmiş. Oraya qayıqlar və balıqçı gəmiləri buraxılmır. Çox ağır olduğundan qurğunun güclü axın, fırtına nəticəsində, yaxud da iri dəniz heyvanları sayəsində itdiyini demək çətindir.

Beləliklə, polis əməkdaşlarının fikrincə, hal-hazırda stansiyanın yoxa çıxmasının ən ağlabatan izahı onun oğurlanmasıdır. Lakin bu stansiya kimə lazım idi, onu necə oğurlayıblar - bu suallar maraq doğurur. Hazırda alman polisi hadisənin detallarını araşdırır.

Araşdırma Mərkəzinin məlumatına görə, rəsədxana 2016-cı ildə 22 metr dərinlikdə quraşdırılıb. Onun qiyməti təxminən 300 min avrodur. ■

## "AQROLİZİNQ" AÇIQ SƏHMDAR CƏMİYYƏTİNİN AÇIQ TENDER ÜSULUNU TƏTBİQ ETMƏKLƏ ELEKTRON SATINALMA ELANI (DƏVƏT)

**Satınalma predmeti:**

**Lot-1. Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması qaydasının tətbiqi ilə bağlı Respublikanın bütün regionlarını əhatə edəcək təlimin keçirilməsi**

Açıq tenderdə iddiaçı qismində satınalmaların predmeti üzrə müvafiq təcrübəyə malik mikro, kiçik və orta sahibkarlıq subyektləri iştirak edə bilərlər.

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar Lot-1 üzrə müəyyən edilən məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet portalı vasitəsilə əldə edə və müsabiqə üzrə təkliflərini təqdim edə bilərlər.

*Təşkilat: "Aqrolizinq" ASC*
*VÖEN: 1700382471*
*H/h: AZ91AİİB38070019443500231102 AZN*
*Kapital Bank Mərkəz filialı*
*VÖEN: 9900003611*
*Kod: 200026*
*M/h: AZ37NABZ01350100000000001944*
*S.W.İ.F.T.: AİİBAZ2X*

**Tenderdə Lot-1 üzrə iştirak haqqı 700 manat təşkil edir. İştirak haqqı heç bir halda geri qaytarılmır.**

"Aqrolizinq" ASC qarşısında yerinə yetirilməmiş və ya lazımi səviyyədə yerinə yetirilməmiş öhdəliyi olan fiziki və hüquqi şəxslər bu tenderdə iştirak edə bilməzlər.

İddiaçılar tenderdə iştirak hüququnu təsdiq edən aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*2. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*4. Tender təklifi dəyərinin 1 %-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır. Bank təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən ən azı 30 bank günü çox olmalıdır);*
*5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*7. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.*

İddiaçının müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin,etibarlığının olmasını müəyyən etmək üçün ixtisas göstəricilərinə dair tələblər aşağıdakılardır:

• Beynəlxalq təşkilat tərəfindən akkreditasiyadan keçmiş təlimçilər üçün ən azı bir təlimçiyə malik olması (TOT) (təsdiqedici sənədlər təqdim edilməklə);
• Ən azı 30 təlimçiyə malik olması (siyahı və CV təqdim edilməklə).
• Təlimin verilməsi ilə bağlı qanunvericiliyə, beynəlxalq tələblərə və tender predmetinə tələblərə uyğun metodologiyanın hazırlanaraq təqdim edilməsi.

Tender predmeti üzrə xidmətlər satınalma müqaviləsi imzalandığı tarixdən etibarən 90 (doxsan) gün müddətində təhvil verilməlidir.

Tender təklifinin qiymətinə satınalma predmetinin dəyərindən başqa, digər xərclərin (nəqliyyat və sığorta xərcləri, vergilər və rüsumlar) daxil edilib-edilməməsi haqqında məlumat daxil olmaqla, təklifin qiymətinin hesablanması və ifadə olunması üsulu öz əksini tapmalıdır.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, müqavilənin yerinə yetirilmə müddəti və şərtlər toplusunda digər qiymətləndirmə üçün tələb olunan tələblərə uyğunluq.

Tender təklifinin qiyməti manatla ifadə olunmalıdır.

Sənədlər Azərbaycan dilində, tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə Satınalan Təşkilata ünvanlaya bilərlər. Tenderlə əlaqədar istənilən məlumatı əldə etmək üçün aşağıdakı şəxsə müraciət etmək olar.

**Əlaqələndirici şəxs: Məmmədova Suqra İlqar qızı**
**Ünvan: Bakı şəhəri, Bakıxanov qəsəbəsi, Bünyadov küçəsi, 12**
**E-mail: m.suqra@agrolizing.gov.az**

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

Səmərəli rəqabətin təmin edilməsi və elektron satınalmanın baş tutması üçün qeydiyyatdan keçən malgöndərənlərin (podratçıların) sayı 3 (üç) iştirakçıdan az olmamalıdır.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 27.09.2019-cu il tarixinə saat 18:00-a qədər və tender təklifi ilə bank təminatı sənədlərini 07.10.2019-cu il tarixinə saat 18:00-a qədər PORTAL VASİTƏSİLƏ təqdim etməlidirlər.

İddiaçıların təklifləri 08.10.2019-cu il saat 11:00 tarixində açılacaqdır. Təkliflərin açılışı dövlət satınalmalarının vahid internet portalında virtual iclas formatında aparılacaqdır.

Elektron satınalmanın hər bir iştirakçısına onun təklifinin açılmasını və qiymətləndirilməsini müşahidə etmək üçün bərabər şərait yaradılır.

*QEYD: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada PORTAL vasitəsilə aparılır.*

**TENDER KOMİSSİYASI.**

## "AQROLİZİNQ" AÇIQ SƏHMDAR CƏMİYYƏTİNİN AÇIQ TENDER ÜSULUNU TƏTBİQ ETMƏKLƏ ELEKTRON SATINALMA ELANI (DƏVƏT)

**Satınalma predmeti:**

**Lot-1. Çap, PR və marketinq materiallarının satınalınması**

**Açıq tenderdə iddiaçı qismində satınalmaların predmeti üzrə müvafiq təcrübəyə malik mikro, kiçik və orta sahibkarlıq subyektləri iştirak edə bilərlər.**

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar Lot-1 üzrə müəyyən edilən məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet portalı vasitəsilə əldə edə və müsabiqə üzrə təkliflərini təqdim edə bilərlər.

*Təşkilat: "Aqrolizinq" ASC*
*VÖEN: 1700382471*
*H/h: AZ91AİİB38070019443500231102 AZN*
*Kapital Bank Mərkəz filialı*
*VÖEN: 9900003611*
*Kod: 200026*
*M/h: AZ37NABZ01350100000000001944*
*S.W.İ.F.T.: AİİBAZ2X*

